**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSR QARABAĞ ƏDƏBİ MÜHİTİ
## ("Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin əlyazmaları əsasında)

| | |
|---|---|
| İxtisas: | 5716.01 - Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Aytən Abuzər qızı Hacıyeva** |

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə yetirilmişdir.

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
**Möhsün Zellabdin oğlu Nağısoylu**

filologiya elmləri doktoru, professor
**Fəridə Ramiz qızı Səfiyeva**

filologiya elmləri doktoru, professor
**Leyla Məcid qızı İmaməliyeva**

filologiya elmləri doktoru, dosent
**Şahbaz Şamı oğlu Musayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
filologiya elmləri doktoru, professor
______________ **Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: ______________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: ______________ filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

Təqdim olunan dissertasiya işi XIX əsr Qarabağ sənətkarları – "Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin ədəbi-bədii irsinin tədqiqinə həsr olunub.

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan ədəbiyyatı tarixində mühüm mərhələlərdən olan, Azərbaycan xalqının tarixində ictimai-siyasi, iqtisadi-sosial vəziyyəti ilə seçilən XIX əsrin ədəbi-mədəni mühiti XX əsrin bədii düşüncəsinin inkişafına zəmin yaratdığı kimi, əvvəlki zəngin mənəvi irs də bu dövr ədəbiyyatının təməlini təşkil etmişdir. Milli ədəbi düşüncə, Şərq ədəbiyyatı ənənələri və Avropa bədii təfəkkürünün təqdim etdiyi ideoloji meyillərin qovuşuğundan bəhrələnərək mövzu və ideya-estetik cəhətdən zənginləşən XIX əsr ədəbiyyatı fərqli inkişaf tendensiyasına malik ədəbi prosesin mövcudluğu ilə səciyyələnir. Bu dövr "*ədəbi məclislərin mütəşəkkil şəklə düşməsi və yaradıcılıq təşkilatı kimi ədəbiyyat tariximizdə daha böyük rol oynaması dövrü*" [1] kimi də diqqəti cəlb edir. "*Bir növ demokratik, kütləvi yaradıcılıq ittifaqları səciyyəsi daşıyan*" XIX əsr ədəbi məclisləri içərisində Qarabağ ədəbi mühitinin yetişdirdiyi "Məclisi-üns" və "Məclisi-fəramuşan" özünəməxsus xüsusiyyətləri ilə seçilirdi. Bu ədəbi məclislərin fəaliyyəti ilə bağlı məqamların, məclis iştirakçılarının yaradıcılığının təhlili bütövlükdə XIX əsr Qarabağ ədəbi mühitinin səciyyəvi xüsusiyyətlərinin müəyyən olunması üçün əhəmiyyətlidir. Bəzi faktlar bu dövrdə Qarabağ ədəbi mühitində bu vaxtadək müəyyən səbəblərdən diqqətdən və tədqiqatdan kənarda qalmış digər bir məclisdən - təriqət məclisindən danışmağın mümkünlüyü ehtimalını qüvvətləndirir: Bu dövrdə təriqət ədəbiyyatının nümayəndələri də xüsusi məclislər təşkil edir, öz ətrafına tərəfdarlar toplayırdılar. XIX əsrin sonlarında Hacı Mir Həmzə Seyid Nigarinin şagirdləri xüsusi məclislər düzəldərək öz ustadlarının şeirlərini oxuyub öyrənirdilər. "*Nigarinin şeir və qəzəlləri onun*

[1] Qarayev N. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı, AMEA Əlyazmalar İnstitutu, 2012, s.17.

*müridləri arasında mütədavül olub, əzbərdən öz məclislərində cəzm olunana qədər oxunurdu”.* [2]

XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin yaradıcılığını müxtəlif aspektlərdən – fəlsəfi, psixoloji, dini, koqnitiv baxımdan səciyyələndirmək də müəyyən ədəbi tendensiyaların təhlili yönündən aktuallığı ilə diqqət çəkən məsələlərdəndir.

Milli-mənəvi dəyərlərin qorunub-saxlanılması və daha da inkişaf etdirilməsinə xüsusi həssaslıqla yanaşıldığı müasir qloballaşma şəraitində tarixi ənənələrlə müasir proseslərdən doğan düşüncəni özündə birləşdirən Qarabağ bölgəsinin tarixi, ictimai-siyasi, mədəni və ədəbi mühitinin sistemli şəkildə araşdırılması, erməni işğalından azad edilmiş Azərbaycan ərazisinin ədəbi-bədii irsinin öyrənilməsi, bununla bağlı ictimai-siyasi məsələlərin mahiyyətinin tarixi faktlar əsasında səciyyələndirilməsi aktual məsələlərdəndir. Tarixən Qarabağ bölgəsi ilə bağlı ictimai-siyasi hadisələrin təkrarlanması, ermənilərin xalqımızın başına açdığı amansız vəhşiliklər barədə tarixi faktlara söykənən həqiqətlər - 1905-1906-cı illər erməni-müsəlman iğtişaşları Qarabağ ədəbi mühitinin nümayəndələrindən olan Mir Möhsün Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası” və Mirzə Rəhim Fənanın “1905-ci il hadisəsi” əsərlərində də öz əksini tapmışdır. Bu baxımdan da Azərbaycanın qədim və zəngin tarixi olan Qarabağ bölgəsinin XIX əsr ədəbi mühitinin və bu mühitin yetirmələri olan şairlərin bədii irsinin araşdırılması, elmi ictimaiyyətə təqdim edilməsi yaşadığımız dövrdə olduqca vacib və əhəmiyyətli məsələlərdən biridir. Müasir dövrdə Azərbaycanın əzəli torpağı olan Qarabağla bağlı bütün məsələlərin, o cümlədən bu bölgədə yaşayıb-yaratmış şairlərin ədəbi irsinin hərtərəfli araşdırılması və ədəbi ictimaiyyətə təqdim edilməsi böyük aktuallıq kəsb edir.

Müasir qloballaşma dövründə xalqın milli-mədəni, fəlsəfi, etnopsixoloji varlığını əks etdirən bədii irsə yeni baxış bucağından yanaşaraq dəyər vermək bir çox məsələlərə aydınlıq gətirmək baxımından xüsusi əhəmiyyətə malikdir.

---

[2]Köçərli F. Azərbaycan ədəbiyyatı tarixi materialları. (2 cilddə) / F.Köçərli. – Bakı; Azərnəşr, c. II. – 1926. - 201s.

Azərbaycan ədəbiyyatşünaslığında XIX əsr Qarabağ ədəbi mühiti, eləcə də Qarabağ ədəbi məclis nümayəndələrinin yaradıcılığı ayrı-ayrılıqda müxtəlif aspektlərdən yanaşılmaqla tədqiqata cəlb olunsa da, bütövlükdə XIX əsr Qarabağ ədəbi mühitinin araşdırılması ilə bağlı monoqrafik tədqiqat əsəri yoxdur. F.Köçərlinin "Azərbaycan ədəbiyyatı", S.Mümtazın "Azərbaycan ədəbiyyatı qaynaqları", F.Qasımzadənin "XIX əsr Azərbaycan ədəbiyyatı tarixi" əsərləri ümumilikdə dövrün ədəbi mühiti ilə bağlı təsəvvür yaratsa da, N.Qarayevin "Poetik məclislər" və "XIX əsr Azərbaycan ədəbi məclisləri", eləcə də R.Kərimovun "Zakir və XIX əsr Qarabağ ədəbi mühiti" adlı araşdırmaları XIX əsr Qarabağ ədəbi mühiti və xüsusilə də ədəbi məclislər haqqında daha ətraflı və geniş tədqiqat kimi diqqəti cəlb edir. Bu dövr ədəbi mühiti, şairlərin həyat və yaradıcılığı K.Məmmədov, N.Axundov, Z.Göyüşov, S.Əhmədova kimi müəlliflərin araşdırmalarında da əksini tapmışdır. Lakin ümumilikdə XIX əsr Qarabağ ədəbi mühitinin səciyyəvi xüsusiyyətləri dolğun və hərtərəfli şəkildə araşdırılmamış, bu dövr ədəbi irsinin əlyazmalar əsasında müxtəlif aspektlərdən təhlili geniş şəkildə tədqiqata cəlb olunmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın başlıca araşdırma obyekti XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun arxivində mühafizə olunan əlyazmaları, XIX əsr Qarabağ ədəbi məclisləri nümayəndələrinin ayrı-ayrı təzkirə, cüng, bəyaz və fraqmentlərdə olan şeir nümunələri və qaynaqlardır. Dissertasiyada "Məclisi-üns", "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığının təhlili nəzərdə tutulsa da, araşdırma zamanı həmin məclislərin üzvü olmayan, lakin sözügedən sənətkarlarla eyni zaman və məkanı paylaşan qarabağlı söz ustadlarının nümunələri də tədqiqat obyektinə çevrilmişdir.

Araşdırmanın əsas predmeti isə Azərbaycan ədəbiyyatının tarixi təcrübəsi əsasında XIX əsr Qarabağ ədəbi mühiti və ədəbi məclis nümayəndələrinin yaradıcılığının hərtərəfli şəkildə tədqiqi, inkişaf istiqamətlərinin müəyyən olunaraq öyrənilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi XIX əsr Qarabağ ədəbi mühiti və bu mühitin məhsulu olan ədəbi məclislərin

geniş və sistemli şəkildə tədqiqi, bu mühitin nümayəndələrinin ədəbi irsinin öyrənilməsində başlıca qaynaqlardan olan təzkirələrin, eləcə də əlyazmaların əsasında mövcud ədəbiyyat məsələlərini araşdırmaq, özünəməxsus xüsusiyyətlərin müəyyən olunması zəminində bu mühitin ümumilikdə Azərbaycan ədəbiyyatı tarixində mövqeyi və özəlliklərini öyrənməkdir. Bu məqsədlə aşağıdakı vəzifələri həll etməyə çalışmışıq:

- XIX əsr Qarabağ ədəbi mühiti, onu şərtləndirən ictimai-siyasi durum və ədəbi prosesə ümumi bir nəzər salmaq, bütövlükdə XIX əsr Qarabağ ədəbi məclislərinin ədəbiyyat tariximizdəki yerini müəyyənləşdirmək;
- XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin əlyazmaları əsasında bu dövr ədəbiyyatının özünəməxsus cizgilərini müəyyən etmək;
- XIX əsr Qarabağ ədəbi irsini məzmun-tematik baxımından təhlil etmək;
- XIX əsr Qarabağ ədəbi məclisləri nümayəndələrinin yaradıcılığında ənənəvi və yeni təmayüllərin izlənilməsi;
- XIX əsr "Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığında psixoloji, koqnitiv xüsusiyyətlərin, fəlsəfi, dini motivlərin müəyyən olunması;
- XIX əsr Qarabağ ədəbi irsini poetik və üslubi baxımdan təhlil etmək.

**Tədqiqat metodları.** İşin metodoloji əsasını ədəbi şəxsiyyət və faktlara yanaşmada tarixilik prinsipi təşkil edir. Dissertasiyada sistemli araşdırma və tarixi-müqayisəli metodlardan, müasir ədəbiyyatşünaslığın əsaslandığı başlıca nəzəri-metodoloji təcrübə və müddəalardan istifadə edilmişdir. Çıxarılan nəticələr, əldə edilən elmi qənaətlər ədəbi və elmi məxəzlərə söykənərək Azərbaycan alimlərinin nəzəri-metodoloji fikirləri ilə əsaslandırılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- XIX əsr Azərbaycan ədəbiyyatı ədəbiyyat tarixində keyfiyyətcə digər dövrlərdən xüsusi şəkildə fərqlənən mərhələlərin olması ilə səciyyələnir;
- Bir tərəfdən milli mədəniyyətin, digər tərəfdən aparıcı fəlsəfi

fikirlərin qabarıq şəkildə təzahürü və ədəbi prosesə təsiri açıq şəkildə müşahidə olunur;

- İctimai və sosial problemlərin daha dərin olduğu dövrlərin ədəbiyyatı yüksək inkişaf tempi və keyfiyyəti ilə fərqləndiyindən XIX əsr Azərbaycan ədəbiyyatı, eləcə də Qarabağ ədəbi məclisləri özünəməxsus xüsusiyyətləri ilə seçilir;

- XIX əsrdə Azərbaycan ədəbiyyatı, o cümlədən Qarabağ ədəbi məclisləri üçün başlıca mənbə kimi klassik ədəbi irs çıxış etsə də, Qərb ədəbiyyatı və fəlsəfi fikirlərinin, həmçinin yeni düşüncə tərzinin çəkisi əhəmiyyətli şəkildə hiss olunur;

- Azərbaycanda milli ideologiyanın yaranması fonunda yeni məzmun və formalı Azərbaycan ədəbiyyatının formalaşması və Azərbaycan bədii düşüncəsində Rusiya və Avropa dəyərlərinə meyil amilinin meydana çıxması özünü göstərir;

- XIX əsrdə Azərbaycan ədəbiyyatı realist, sosial baxışların meydana çıxması, bu proseslərin fonunda ədəbiyyatın ümumi istiqamətinin formalaşması və keyfiyyətinin müəyyənləşməsi ilə səciyyələndirilə bilər;

- XIX əsr ədəbiyyatı özündən əvvəlki və sonrakı dövrlərin ədəbiyyatından təkcə ideya və məzmun xüsusiyyətlərinə görə deyil, həm də üslub, forma və metod, ideya-estetik sistem baxımından da fərqlənirdi;

- Ədəbi birliklər dövr və mühitlə bağlı şərtlər nəzərə alınmaqla bütövlükdə yaradıcılıq prosesini istiqamətləndirərək müəyyən axına salır, mədəni hadisəyə çevrilən belə birliklər yeni mədəni baxış tərzi formalaşdırır;

- XIX əsr Azərbaycan ədəbi mühiti həm dini-didaktik, həm maarifçi-realist, həm də dünyəvi mövzulara meyil kimi istiqamətlərlə diqqəti cəlb edir;

- XIX əsrdə ədəbi məclislər mövcud dəyərlərin ümumxalq səciyyəsi qazanmasında, klassik divan ədəbiyyatının və muğam musiqisinin milli mədəniyyətin aparıcı amillərinə çevrilməsində əhəmiyyətli rol oynamışdır;

- Ədəbi məclislər yeni yaradıcı nəslin təlimində, bədii ənənələrin

yaşamasında, ustad-şagird ənənələrinin davam etməsində müstəsna rol oynamışdır;

- XIX əsr Azərbaycan ədəbiyyatının tam yeni ideya-estetik istiqamətdə inkişafı yeni ədəbi-estetik prinsiplərin, növ və janrların inkişaf tapmasına səbəb olmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya XIX əsr Qarabağ ədəbi mühiti və bu mühitin yetişdirdiyi ədəbi məclislərin sistemli şəkildə tədqiqinə həsr olunmuş ilk geniş elmi araşdırmadır. Tədqiqat işində ədəbiyyatşünaslığımızda mövzunun tədqiqi ilə bağlı yeni olan bir sıra məsələlər mövcuddur:

- XIX əsr Qarabağ ədəbi məclislərini təmsil edən ədiblərin yaradıcılığı dövrün ictimai-siyasi və ədəbi-mədəni mühiti fonunda tədqiq edilir;
- XIX əsr Qarabağ ədəbi məclisləri nümayəndələrinin yaradıcılığında koqnitiv-psixoloji xüsusiyyətlər müəyyənləşdirilir;
- XIX əsr "Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin bədii irsində emotivliyin gender baxımından fərqli ifadəsi kimi məsələlər nəzərdən keçirilir;
- Ədəbi birliklər dünya ədəbiyyatı kontekstində sözügedən topluların yeni mərhələyə qədəm qoyan mütəşəkkil ədəbi prosesinin dayaq nöqtəsi kimi araşdırılır;
- Mətnin adekvat mənimsənilməsi məqsədilə müxtəlif tədqiqat metodları ilə yanaşı, hermenevtik, aksiomatik, induktiv, deduktiv və s. kimi konsepsiyalardan bəhrələnməklə Qarabağ sənətkarlarının yaradıcılığı müxtəlif aspektlərdən araşdırılarkən orijinala müraciət edilir, Növrəs, Baki, Nəvvab, Fəna, Bülbül kimi şairlərə məxsus əlyazma mətnləri üzərində işləmək müstəqil araşdırma keyfiyyəti daşıdığı üçün sözügedən nümunələr geniş elmi-nəzəri müddəalar istiqamətində araşdırılır;
- Qarabağ ədəbi mühitinə xüsusi çəki verən şeir topluları və salnamələrin əsrin ictimai ziddiyyətlər dalğasında yaranmasından söz açılır;
- XIX əsrin reallığında Şərqlə Qərbin harmoniyası Qarabağ sənətkarlarının yaradıcılığı müstəvisində araşdırılır;
- Təriqət məclisləri ilə söz sənəti arasındakı üzvi bağlılıq ortaya

çıxarılır;

- Məclis nümayəndələrinin yaradıcılığında emotivliklə obrazlılığın sərhəddi müəyyənləşdirilir;

- Yeni sivilizasiyaların astanasında yazıb-yaradan, milli-mədəni dəyərlərimizi hifz edən Qarabağ sənətkarlarının təsəvvüfi görüşləri araşdırılır, orta əsr sufiliyindən fərqli xüsusiyyətlər ortaya qoyulur;

- İndiyədək diqqətdən kənarda qalmış təriqət məclisləri tədqiqata cəlb edilərək təsəvvüf dünyagörüşünün və onun təmayül təsirlərinin Azərbaycan mənəviyyatı üçün heç də qəbul olunmaz bir düşüncə modeli olmadığından bəhs olunur. Sözügedən təriqət məclislərinin Qarabağ sənətkarlarının həyat və fəaliyyətində yeri müəyyənləşdirilir. Bu dövrün ən böyük təriqət şairi olan Seyid Nigari ilə "Məclisi-üns", "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığında səsləşən məqamlar araşdırılır;

- XIX əsrdə təriqət məclisinin mədəni hadisədən ictimai-siyasi müqavimət hərəkatına çevrilə bilməsinin təriqət haqqında nəzəri konsepsiyanın müddəalarına zidd mövqe sərgiləməməsi qənaəti ortaya qoyulur;

- Dissertasiya işində şifahi xalq yaradıcılığı nümunələrinin istər məzmun, istərsə də forma-sənətkarlıq baxımından Qarabağ ədəbi mühitinə təsirinə geniş yer verilir;

- Qarabağ şairlərinin yaradıcılığında divan şeir ənənələri ilə xalq şeiri imkanlarının poetik vəhdəti ortaya qoyulur;

- Qarabağ sənətkarlarının söylədikləri bir çox mülahizələrin cəmiyyət üçün təhlükəli olduğunu anladıqlarından, dolayı yolla müəyyən siyasi, əxlaqi məlumatları anlatmaq məqsədi ilə tərcümə sahəsinə də müraciət etmələrini nəzərə alaraq onların cəmiyyətin inkişafı ilə bağlı fikirlərini reallaşdırmaq üçün yararlandıqları tərcümə sənətindən bəhs edilir;

- Qarabağ sənətkarlarının maarifçi görüşlərindən bəhs edilərkən ilk dəfə olaraq M.Nəvvabın M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan "Müseyibnamə" adlı əlyazması da təhlilə cəlb edilir;

- XX əsrin əvvəllərində erməni millətçilərinin törətdiyi qırğınlardan bəhs edən dəyərli mənbələrdən biri kimi, Mirzə Rəhim Fənanın tə-

rəfimizdən tərcümə edilərək geniş oxucu kütləsinə təqdim edilən, N-Q1/1, 7078 şifrəsi altında Əlyazmalar İnstitutunda qorunub saxlanılan "1905-ci il hadisəsi" əsəri ilk dəfə olaraq məhz bu dissertasiyada geniş tədqiq obyektinə çevrilir;

- "İnsan təqdimatında üz cizgilərinin təsviri" adlı bölmədə kontent analiz metodundan istifadə olunmaqla təhlil zamanı tədqiqatçının subyektiv təəssüratları standart ölçü prosedurlarından əldə olunmuş nəticələrlə əvəz olunmaqla araşdırılır;

- XIX əsr Qarabağ ədəbi məclisləri nümayəndələrinin yaradıcılığı poetik və üslubi xüsusiyyətlər baxımından da tədqiqata cəlb olunur.

Araşdırma zamanı XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunan əlyazmalarından, ayrı-ayrı qaynaqlardan əldə edilmiş şeir nümunələrindən istifadə olunduğundan, bu nümunələr müqayisəli tekstoloji və filoloji araşdırma əsasında təqdim olunduğundan gələcək tədqiqatlarda düzgün variantın müəyyən olunması baxımından da əhəmiyyət kəsb edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatda XIX əsr Qarabağ ədəbi mühiti, bu poeziyanın səciyyəvi xüsusiyyətləri, Azərbaycan ədəbiyyatı tarixində mövqeyi geniş şəkildə şərh olunduğundan onun materiallarından klassik Azərbaycan ədəbiyyatı üzrə mütəxəssislər, ali məktəb tələbə və müəllimləri istifadə edə bilərlər. Ali məktəblərdə xüsusi kurs məşğələlərinin keçirilməsi, XIX əsr Azərbaycan ədəbiyyatı tarixinə dair dərs vəsaitlərinin, tədris planlarının hazırlanmasında da dissertasiyadan elmi mənbə kimi istifadə etmək mümkündür. Dissertasiyanın əsas mülahizə və qənaətləri mövzu ilə əlaqədar yazılan tədqiqatlar üçün faydalı ola bilər.

**Aprobasiyası və tətbiqi.** İşin əsas müddəaları, tədqiqat zamanı əldə edilmiş yeniliklər Azərbaycanda və xaricdə nəşr edilən müxtəlif elmi məcmuələrdə, beynəlxalq elmi konfransların materiallarında dərc olunan elmi məqalələrdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Türkdilli əlyazmaların tədqiqi" şöbəsində yerinə

yetirilmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, hər biri bir neçə bölmədən ibarət olmaqla dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi 14 446, I fəsil 147 433, II fəsil 111 953, III fəsil 131 953, IV fəsil 51 548 nəticə hissəsi isə 5 964  simvol olmaqla ümumi həcmi 463 297 simvoldur.

## TƏDQİQAT İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanin **Giriş** hissəsində tədqiqat işinin mövzusunun aktuallığı, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti qeyd olunur, tədqiqatın predmeti, vəzifələri və metodları, həmçinin dissertasiyanın müdafiəyə təqdim olunan müddəaları təsvir edilir.

**"Ədəbi məclis anlayışı və XIX əsr Qarabağ ədəbi mühitində Şərq-Qərb konsepsiyası"** adlı I fəsil III yarımfəsildən ibarətdir. I bölmə **"XIX əsr Qarabağ ədəbi mühiti: ədəbi birlik anlayışı və Qarabağ ədəbi məclislərinin səciyyəvi xüsusiyyətləri"** adlanır.

Yazıçının sosial həyatı, ictimai fəaliyyəti, ünsiyyət dairəsi bəzən problemlərə daha yaxından bələd olmaq, onun həlli yollarını müəyyən etmək kimi məsələlərdə həlledici rol oynayır.  Ədəbiyyatla bağlı fikir mübadiləsi - fikirləri bölüşmək ehtiyacı müxtəlif dövrlərdə ədəbi birliklərin yaranmasının səbəblərindən hesab oluna bilər. B. Eyxenbaum qeyd edirdi ki, ədəbi iş ortaya  qoymaq üçün ədəbiyyatçı olmaq tələb olunur – yalnız yazmaq kifayət deyil, yazıçılıqla bağlı uyğun həyat tərzi keçirmək zəruridir.[3] Ədəbi birliklər dövr və mühitlə bağlı şərtlər nəzərə alınmaqla bütövlükdə yaradıcılıq prosesini istiqamətləndirərək müəyyən axına salır, mədəni hadisəyə çevrilən belə birliklər yeni mədəni baxış tərzi formalaşdırır. Dünya səviyyəsində ədəbi prosesin tarixinin izlənilməsi müxtəlif dövrlərdə fərqli ədəbi birliklərin mövcud olduğunu söyləməyə əsas verir.

---

[3] Эйхенбаум Б.М.  Теория формального метода. http:// transformations. russian-literature.com/eichenbaum-teorija-formalnogo-metoda

Müəyyən birliklərin yaradılması və ədəbi fəaliyyətlə məşğul olan şəxslərin bu birliklərdə bir araya gəlməsi ehtiyacı XIX əsrin əvvəllərinədək ədəbiyyat sahəsinin bir peşə istiqaməti olaraq qəbul olunmaması ilə də bağlı idi. Ədəbi fəaliyyətin mütəşəkkil səciyyə qazanması ilə birlik və dərnək şəklində fəaliyyət göstərən bu qurumlar yeni mərhələyə qədəm qoyaraq daha nizamlı və müstəqil şəkildə ədəbi prosesin mərkəzi dayaq nöqtələri kimi işini davam etdirməyə başlamışdı. Ədəbi birliklər ya müəyyən ideya ətrafında birləşən, ya müəyyən bədii üslubu, ya da müəyyən bölgəni təmsil edən yaradıcı insanların bir araya gəlməsi ilə yaranırdı.

XVIII əsr, eləcə də XIX və XX yüzilliyin əvvəllərində Avropada çoxsaylı və müxtəlif istiqamətli ədəbi birlik və cəmiyyətlər fəaliyyət göstərmişdir. Bunlar arasında hakimiyyət qüvvələrinə yaxın olanlardan tutmuş, gizli fəaliyyət göstərən təşkilatlaradək fərqli qurumlara təsadüf olunsa da, bütün hallarda bu birliklər ədəbi prosesin istiqamətinin müəyyən olunmasında seçildiyindən, ədəbiyyatın və ümumilikdə mədəniyyətin inkişafına təkan verdiyindən hər bir milli ədəbiyyatın, dolayısı ilə bütövlükdə ədəbiyyatın yeni mərhələyə yüksəlməsində, fərqli baxış və cərəyanların formalaşmasında əhəmiyyətli rola malik olmuşdur. Belə birliklərin nümayəndələri adətən birlik üzvlərindən birinin evində toplaşırdılar. Örnək üçün qeyd edək ki, XIX əsrdə Rusiyada fəaliyyət göstərən belə birliklərdən biri – "Rus sözünü sevənlərin söhbəti" adlı ədəbi birliyin üzvləri Q. Derjavinin evində yığışırdılar.[4] Eyni prosesi müxtəlif xalqlara məxsus ədəbiyyat tarixində izləmək mümkündür.

Tarixən müxtəlif inkişaf mərhələlərindən keçmiş Azərbaycan ədəbiyyatı yeni keyfiyyətlər qazanmaqla yanaşı, mövcud ənənəni də qorumağa nail olmuş, fərqli ədəbi cərəyanların, müxtəlif ictimai-mədəni proseslərin təsirinə məruz qalmışdır. XIX əsr Azərbaycan ədəbi mühiti müxtəlif baxış və istiqamətlərin mövcudluğu ilə səciyyələndiyindən bu dövr həm dini-didaktik, həm maarifçi-realist, həm də dünyəvi mövzulara meyil kimi istiqamətlərlə diqqəti cəlb edir. XIX əsr Azərbaycan

---

[4] Беседа любителей русского слова. https://ru.wikipedia.org/wiki

ədəbiyyatı üçün Qərb ədəbiyyatında geniş yayılmış ədəbi birliklərin daha çox Şərq üslubu və ənənələrinə uyğun forması olan ədəbi məclislərin fəaliyyəti səciyyəvi idi.XIX əsrin ikinci yarısında kapitalist münasibətlərinin sürətlə inkişaf etdiyi Azərbaycanda milli təfəkkürün qabarıq təzahürü, milli mətbuatın, milli teatrın inkişafı ilə yanaşı, Azərbaycan xalqının mədəni həyatında tarixi çox qədim olan, lakin XIX əsrdə intibah dövrünü yaşayan ədəbi məclislərin geniş fəaliyyətinə şərait yaratmışdır. Klassik irsin öyrənilməsində, söz sənətinin xalq arasında təbliğ olunmasında, həmçinin yeni-yeni istedadların üzə çıxmasında ədəbi məclislərin böyük rolu olmuşdur.

"**XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında Şərq-Qərb düşüncəsi**" adlanan II yarımfəsildə Qarabağ ədəbi məclis nümayəndələrinin yaradıcılığında başlıca mənbə olan klassik irslə yanaşı Qərb ədəbiyyatı və fəlsəfi düşüncə tərzinin yeri müəyyənləşdirilərək nəzərdən keçirilmişdir.

XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin yaradıcılığı bir sıra özünəməxsus xüsusiyyətlərlə yanaşı, həmin dövrdə bütövlükdə Azərbaycan ədəbiyyatında diqqəti cəlb edən meyil və ideya istiqamətlərinin müşahidə olunması ilə də səciyyələnir.

Təzadlı təmayüllərin izlənildiyi bu dövr ədəbiyyat tarixində həm də fərqli ideya-fəlsəfi baxışların və üslub xüsusiyyətlərinin, tarixən mövcud olmuş əlaqə və münasibətlərə, mədəni irsə yeni baxışın meydana çıxdığı dövr kimi maraq doğurur.

Ədəbi əlaqələr tarixən müxtəlif istiqamətli və xarakterli olmuş, sosial-siyası, iqtisadi səbəblərlə şərtlənmişdir. Şərq-Qərb əlaqələrinin kökü dərin olduğu kimi, onu şərtləndirən səbəblər də müxtəlif və çoxcəhətlidir. Müəyyən tarixi dövrlərdə bu təsirlərin səbəbi və xarakteri fərqli olsa da, ümumilikdə bu prosesin dünya ədəbiyyatında universal qanunauyğunluğa malik olması diqqəti cəlb edir. Bəzi məqamlarda təsir sırf canlı ünsiyyət, ticari əlaqələrin intensivləşməsi və ya hərbi müdaxilələrlə bağlı olsa da, başlıca səbəb kimi cəmiyyətdə yetişən hər hansı boşluq, mənəvi ehtiyac çıxış edir.

Qərb ədəbiyyatında ədəbi cərəyan kimi orientalizm bir çox hallarda Şərqə uzaqdan-uzağa, tanımadan heyranlıq, öz eyiblərini, cəmiy-

yətdə təsadüf olunan nöqsanları ideallaşdırılmış, xəyali Şərq obrazı ilə müqayisə edərək Şərq obrazından metafora kimi istifadə olunması şəklində təzahür etmişdir. Şərq mifologiyasının diqqəti cəlb edən başlıca mövzularından biri kimi həyatla bağlı xaosun qaydaya salınması, ahəngdarlığa nail olmanın yolları əbədi amal kimi ədəbiyyatda öz əksini tapmışdır. Bu ədəbiyyat bəzən insanı əhatə edən narahat, qarışıq hadisələrdən qaçıb sığındığı ahəngdarlıq və gözəllik aləmi kimi çıxış edirdi. Lakin əlaqə və təsir, təbii ki, birtərəfli deyildi. Bununla bağlı N. Konrad yazır: "*... yalnız Qərb ədəbiyyatı Şərq ədəbiyyatı tarixində böyük rol oynamamışdır, Şərq ədəbiyyatı da Avropa ədəbiyyatının inkişafı tarixinə öz töhfəsini vermişdir*".[5]

XIX əsr ədəbiyyatında Şərq ədəbiyyatının xüsusi təsir istiqaməti kimi diqqəti cəlb edən Nəvai ənənələrinin xüsusi yeri və çəkisi vardır. Birbaşa təmasdan yaranan ədəbi əlaqələrdən başqa, mənəvi yaxınlıq, ümumi mədəni ənənələrin mövcudluğu, ictimai proseslərin varlığı da bu sahədə xüsusi rol oynayan səbəblərdəndir. XVIII-XIX əsrlərdə Azərbaycan ədəbiyyatında Nəvai ilə ədəbi əlaqələri şərtləndirən cəhətlərdən biri kimi Azərbaycan şairlərinin cığatay-özbək dilində yazmaları və ümumiyyətlə bu dilin ünsürlərinin Azərbaycan şeirində özünü göstərməsinin olduğunu yazan C. Nağıyeva bu dövrdə xalqlarımızın eyni taleyi paylaşdığını qeyd edir: "*Maraqlıdır ki, hər iki xalqın – Azərbaycan və özbək xalqlarının ədəbiyyatlarının taleyi də XVIII-XIX yüzilliklərdə eyni olmuşdur. Bu vəziyyət, əlbəttə, siyasi, ictimai və iqtisadi zəmin üzərində yaranıb inkişaf edirdi. Ölkədə xanlıqlar, bu xanlıqlarda şairlərin ədəbi məclisləri, məclislərin tematikası, qəzəlxanlıq, ictimai-iqtisadi bərabərsizlik, ədalətsizlik, digər tərəfdən, demokratik ünsürlərin, realizm ünsürlərinin yaranması hər iki xalqın ədəbiyyatlarını bir-birinə yaxınlaşdırmışdır*".[6]

Xalqın maariflənməsinin qeydinə qalan, onun dar düşüncəli insanların, din fanatiklərinin təsiri və birbaşa təzyiqi nəticəsində o qədər

---

[5] Конрад Н.И. Проблемы сравнительного литературоведения. В кн.: Запад и Восток. М., Изд-во восточной литературы, 1972, с.302.

[6] Nağıyeva C. Azərbaycanda Nəvai. Bakı, Tural-Ə, 2001, s.165.

də rəngarəng keçməyən həyatını rövnəqləndirməyə can atan XIX əsr Qarabağ sənətkarları gənc nəslin maariflənməsinin qeydinə qalaraq milli mədəniyyətin, ədəbiyyatın inkişaf etdirilməsində rus klassiklərinin əsərlərini yüksək qiymətləndirərək onların müsbət ideyalarını həmvətənləri arasında yaymağın zəruriliyini dərk etmiş, rus klassiklərinin bədii irsini zülmətdə qalan duyğularımızın ziyalanması üçün əsas vasitələrdən biri saymışlar.

**"XIX əsr Qarabağ ədəbi mühitində dini-mifoloji obrazlar bədii vasitə kimi"** adlı I fəslin üçüncü yarımfəslində "Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin dini obrazlardan hansı məqsədlə və yollarla istifadə etməsindən bəhs olunur.

Şərq bədii təfəkküründə dərin kök salmış dini-ideoloji baxışlarla bağlı istilah və ifadələrdən faydalanma, istər məzmun, istər bəlağət özəllikləri, istərsə də zərif söz incəlikləri baxımından mənəvi-əxlaqi dəyərlər və zəngin söz abidəsi olan Qurani-Kərimə müraciət də XIX əsr Qarabağ ustadlarının yaradıcılığında mühüm yer alır.A.A.Dolilina orta əsrlər ərəb ədəbiyyatının görkəmli nümayəndələrindən olan əl-Xəririnin "Məqamlar" əsərinə münasibətdə qeyd etmişdir ki, orta əsrlərdə Şərq ədəbiyyatında dini-fəlsəfi düşüncə qaynağı kimi Quran rəvayətlərinə müraciət geniş yer almışdır.[7] Eyni fikri XIX əsr Qarabağ sənətkarlarına da şamil etmək mümkündür. Belə ki, sözügedən ustadların yaradıcılığında da dini mətnlərdən işlənmə dairəsinə görə seçilən qissələrə müraciət hallarına daha çox təsadüf edilir. Bu müraciət bəzən birbaşa iqtibas, əksər hallarda isə "*hər hansı məşhur ayə və ya qissəyə gözucu işarə mənasında işlənən, Quranla bağlı bəlağət kateqoriyalarından olan*"[8] təlmih səciyyəsi daşıyır. Hekayət bəzən yarımçıq halda təqdim edilir və ya rəvayətdən yalnız bir epizod verilirsə, bəzi məqamlarda "*hadisənin özü-*

---

[7] Долилина А.А.Коранические цитаты и реминисценции в "Макамах" ал-Харири. Ислам. Религия, общество, государство. М., Наука, 1984, с.159-160.
[8] Quliyeva M. Klassik Şərq bəlağəti və Azərbaycan ədəbiyyatı. Bakı, Ozan, 1999. s.43.

*nə, yaxud əsas iştirakçısına işarə edilir".*[9]

Qarabağ sənətkarlarının yaradıcılığında ilk peyğəmbər olan Adəmin hekayəti ilə bağlı təlmihlərə gəlincə, onlar əsasən irfani məzmun kəsb edən poetik örnəklərində Haqqa qovuşmaq yolunda saysız-hesabsız əzablarla üzləşən aşiq obrazı ilə Adəm p. arasında bir bənzərlik axtarmışlar. Məxfi, Salar, Safi və s. kimi ustadlar dini-fəlsəfi məzmunlu çoxsaylı nümunələrlə Adəmin cənnətdən qovulması hadisəsinə xüsusi diqqət çəkərkən İslamın müqəddəs kitabına müraciət etmişlər. Yeri gəlmişkən qeyd etmək istərdik ki, yaradılış haqqında ismaililərin baxışlarından söz açan tədqiqatçı Korben də, onların Adəmin günahından bəhs edərkən müsəlman və xristian əfsanələrinə əsaslandıqlarını bildirmişdir.[10] Türk xalq bəktaşi ədəbiyyatında da Adəmin cənnətdən çıxarılmasının başlıca səbəbi kimi buğda dənəsi göstərilmiş, Altay dastanlarında isə bu nəsnədən söz açılmamışdır.[11] Buğda, üzüm ağacına yaxınlaşmaq yasaq olduğu kimi, gözəlin xalına tamah salmaq da qadağandır. Çünki aşiq xala meyil etməklə zülfün əsirinə çevrilir. Kəsrətin rəmzi olan zülf isə təsəvvüfdə *"salikin diqqətini haqdan yayındıran varlıqların cazibəsi"* kimi səciyyələndirilir.[12] Bu səbəbdən də Adəmin buğda dənəsinə tamah salmasından dolayı cəzalandırılması kimi, aşiqin də xala meyil etməklə günahlandırılması, zülfün əsiri olması heç bir təəccüb doğurmur. Sədi Sani Qarabağinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun fondunda saxlanılan əlyazmasında diqqətimizi cəlb edən beyt də bu baxımdan səciyyəvi hesab oluna bilər:

*Adəmin əqlini aldatmağa cənnət quşutək,*
*Danə-danə ağ üzündə qara xal olmalıdır.*[13]

---

[9] Babayev Y. Təriqət ədəbiyyatı; sufizm, hürufizm. Bakı, Nurlan, 2007, s.128.

[10] Семенова Л. А. Фатимидиский исмаилизм в современном заподном востока, Ислам в истории народов Востока. М., Наука, 1981, с.53.

[11] Bahaeddin Ö. Türk mifolojisi, I c. Ankara, Tütk Tarih Kurumu basım evi, 1971, s.476.

[12] Göyüşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, Tural-Ə, 2001, s.236.

[13] Sədi Sani Qarabaği. Fond 24. Arx.-38 Г (2) 77. 9562, s.258.

A. Qasımovanın qeyd etdiyi kimi, qadağan olunmuş ağac fərqli mənbələrdə müxtəlif cür səciyyələndirilir.[14] Buğda, kafur,elm ağacı və s. kimi adlandırılan ağacın bəzi mənbələrdə üzüm ağacı olması faktı da qeydə alınmışdır. Qarabağ sənətkarları da əksər poetik nümunələrində buğda dənəsindən söz açsalar da, bəzən onun üzüm ağacı olmasına da işarə etmişlər.

*Daneyi - ənqurdur düşmüşdür gülfam ara,*
*Ləblərində yoxsa ol hinduyi xalındır sənin.*[15]

Şərq ədəbiyyatında, xüsusilə də Qarabağ sənətkarlarının ədəbi nümunələrində Yusif qissəsinə daha çox müraciətin başlıca səbəbi isə bu hekayətin bir çox motivlərinin kifayət qədər material verməsidir. Yusif obrazının daimi ədalətli şah arzusunda olan xalq kütlələrinin ideallarına uyğun gəlməsi də ona daha çox müraciəti şərtləndirən amillərdən biri kimi qiymətləndirilə bilər. İstər Qul Əli ilk anadilli poemamız olan "Qisseyi-Yusif" əsərində, istərsə də onun ilk ardıcılı Şayyad Həmzə "Yusif və Züleyxa" poemasında hökmdar və xalq rifahı məsələsinin əksinə diqqət çəkmiş, daha sonralar Tomas Mann da öz əsərində cəmiyyət modelini əsas götürmüşdür.[16]

Lakin sənətkarlar Yusif süjeti ilə bağlı poetik obrazları örnəklərə gətirərkən sadəcə təsvirçilik yolunu əsas tutmamış, ənənəvi şəklə düşən bu obrazlarla öz ideyasını-ilahi eşqini, bu eşq yolundakı iztirablarını zəngin təxəyyülünün imkan verdiyi gözəl bir dillə izhar etmişlər. Bu səbəbdəndir ki, Qarabağın söz ustadları "ülvi gözəllik", "paklıq" kimi səciyyələndirilən peyğəmbərin gözəlliyinə işarə edərkən varlığına səcdə etdiyi və vüsalına qovuşmaq ehtirası ilə alışıb yandığı məşuqənin hüsnünü ondan daha üstün tutmuşlar:

*Ey məh, nə əcəbdən, nə qəşəngsən, nə gözəlsən?*
*Xubluqda bu gün Yusifi-Kənana bədəlsən.*
*Demək nə rəva,Yusifi-sani, sən əzəlsən.*

---

[14]Qasımova A. Klassik şeirimizdə gözəlin vəsfi. Dil və ədəbiyyat, nəzəri, elmi, metodik jurnal 2 (20), Bakı, 1998, s.119-120.

[15] Məxfi. Şeirlər (əlyazma) Г-13/7571, s.14[a].

[16] Манн Т.Иосиф и его братья М., Наука, 1968, с.23.

*Dur mən dolanım başına, bir yanıma gəlsən,*
*Haşa edəlim bil ki, xəyanət sənə, dilbər.*[17]

Qurani-Kərimin bir sıra hədislərində Yusifin gözəlliyindən söz açılmış, sözügedən cəhət Sələbinin "Qisasül-ənbiya" əsərində də öz əksini tapmışdır. Müəllifə görə, "*Adəm asi olduqdan sonra Allah-Təala tərəfindən ona verilən gözəllik alınaraq Yusifə bağışlandı*".[18]

Qarabağ sənətkarlarının yaradıcılığında klassik şeirimizin simvollarından olan "çahi-zənəxdan" ifadəsinə də çox təsadüf edilir. Belə ki, onlar "*haqqın camal müşahidələrindən doğan sirr və həqiqətlərin aşkar edilməsində salikin qarşısına çıxan çətinlikləri*"[19] ifadə etmək, fani dünyaya bağlılığı bildirmək üçün məşuqun zənəxdanındakı çuxurla Yusifin atıldığı quyu arasında bir paralellik aparmışlar. H.Qaradaği yazır:

*Yenə üftadeyi-bir çahi-zənəxdan oldum,*
*Neylədim mən görəsən, layiqi zindan oldum.*[20]

Qarabağ sənətkarları bəhrələndikləri qaynaqları zənginləşdirmək məqsədilə Musa əleyhissəlamla bağlı qissələrin bir epizodunu əsərin süjet xəttinin inkişafında ifadə vasitələrindən biri kimi işlətmişlər. Onların yaradıcılığında Musa peyğəmbərlə ilgili bir çox əhvalatlarla zəngin qissənin əsas cəhətləri əks olunmuşdur. Bəhram bəy Fədai yazır:

دهانش نطق عیسا را بجان سحر عیان سازد
ید بیضا الموسی را کف در آستین دارد

*Dəhanı can bağışlamaqda İsanın nitqinə oxşar,*
*Ovcunun içində Musanın ağ əli vardır.*[21]

Burada şair vəsf etdiyi gözəlin ecazkarlığını göstərmək üçün onu eyni zamanda iki peyğəmbərə-nəfəsi ilə ölülərə can verən İsa peyğəm-

---

[17] Həsənəli xan Qaradağı. Əşar. (əlyazma). M-310, v.124[a].

[18] Qasımova A. Quran qissələri XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatının ideya – bədii qaynaqlarından biri kimi f. e. d. alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dis. avt. Bakı, 2001, s.76.

[19] Göyüşov N. Təsəvvüf anlamları və dərvişlik rəmzləri. Bakı, Tural-Ə, 2001, s.213.

[20] Həsənəli xan Qaradaği. (əlyazma) cəmi 24 vərəq. Б-1486/ 3111, s.8.

[21] Nəvvab M. Təzkirə. Əlyazma. M-67/2364, 209[b].

bərlə əli ilə möcüzələr göstərən Musaya bənzətməklə bədii dəyərə malik təlmih nümunələri yaratmışdır. Sənətkar gözəlin əllərini parlaqlığı, ağlığı baxımından Musa peyğəmbərin qolunun altına salıb çıxartdıqdan sonra parlayan əlinə-yədi-beyzaya bənzədir. Musanın əlinin ağarmasını bəzi Quran şərhçiləri onun qara dərili olması ilə izah etsələr də, Bibliya rəvayətlərindən bəlli olur ki, söhbət gah görünən, gah da itən cüzamdan gedir.[22] Yeri gəlmişkən qeyd edək ki, Musa ilə ilgili yəhudi rəvayətlərində Fironun cüzam xəstəliyinə tutulmuş digər qızının (Asiyanın) bu bəladan peyğəmbərin ağız suyu ilə sağalmasına dair məlumat da vardır.[23]

"Məclisi-üns", "Məclisi-fəramuşan" üzvləri Musa peyğəmbərlə bağlı qissələrin məhz bu mərhələsini – aşiqin özünü cismən və ruhən yox edib vüsala yetmə mərhələsini əks etdirən mövzulara (peyğəmbərin Tur dağında Yaradanla görüş səhnəsinə) daha geniş yer vermişlər.

Həzrət Musanın möcüzələri qarşısında cadugərlər qaçmaq məcburiyyətində qaldıqları kimi, məşuqun camalının şöləsi, cazibəsi digər məhvəşləri (ay üzlüləri) kölgədə qoyur. Musa p. ilə Harunun Fironun cadugərləri ilə mübarizəsi mövzusu Misir papiruslarında da öz əksini tapmışdır. Satki-Xemuas haqqında hekayətlərdə Sa-Osirisin sehrbaz Qor üzərində qələbəsindən bəhs olunur.[24]

*Qədin fikri iki gözdən edər xunabi qəm cari,*
*Şikaf etmiş bu dəryanı əsa hökmilə Musatək.*[25]

Asi aşiqin dərd, iztirablarının sadiq təmsilçisi olan göz yaşlarını həsrətdən qovrulub yaxılan qəlbinin iniltisini göstərmək məqsədilə Musanın əsası ilə ikiyə bölünmüş dəryanın sularına bənzədir. Yəhudi hekayətlərinə görə, dəniz həzrət Musanın əsası ilə həmin anda yarılmayaraq

---

[22] Пиотровский М. Б. Коранические сказания. Ислам в истории народов Востока. М., Наука, 1991, с.110.

[23] Флавий Иосиф. Иудейские древности Т I,П. 2000, с.15

[24] Кощнельсон И.С.Папирус весткар и Библейское сказание о Моисее. Палестинский сборник Выпуск 13 (76) Памятники писменности и литературы Ближнего Востока М.Л., Академия Наук СССР. 1965, s.42.

[25] Asi A. Qəzəllər. Fond 24,siy.1 sax.vah. 75. cəmi 67 vərəq. Г-6 (153). Arx.-38, 12ª.

insanın onun üzərində əminliklə addımlamasını gözləmişdir. Ümumiyyətlə, Bibliyada təsviri verilmiş Adəmdən miras qalmış əl ağacı öz füsunkarlığı, sehri ilə diqqət çəkir. Ravvin ədəbiyyatına görə, sarayın girişindəki şirləri də Musa əl ağacı ilə ram edərmiş.[26] Yeri gəlmişkən qeyd edək ki, əsa maldarlıqla məşğul olan fulberlərin də dini baxışlarında mühüm əhəmiyyət kəsb etmişdir. Çoban fulberlərin əsaya and içmələri onların dini baxışlarında əsanın magik səciyyə daşıdığını göstərir.[27] Əsanın ilana, yaxud əjdahaya çevrilməsi isə Misir papiruslarındakı sehrbaz Uba-Operin öz xəyanətkar arvadını cəzalandırmaq məqsədilə mumu timsah edib sonra isə əvvəlki durumuna gətirməsinə dair hekayətin ekvivalenti kimi səciyyələndirilə bilər.[28]

Qurani-Kərimdəki Musa peyğəmbərin əsasının əjdahaya çevrilməsi hadisəsinə C.Rumi məsnəvisində işarə edərək onu insan nəfsinə bənzətmişdir: *"Cəhənnəm, bu nəfsdir, cəhənnəm bir əjdahadır ki, dənizlərlə əksilməz".*[29]

Sufiyanə ədəbiyyatda əjdahanın ram edilməsi zəfər təntənəsi ilə müşaiyət olunmur. Çünki burada "qalib", "məğlub" məfhumları öz ilkin mənasını itirir. Əjdahanı dəf edən insan İlahi qarşısındakı öz kiçikliyini dərk edən, dolayısı ilə alçalaraq ucalan arifdir. Onu da qeyd etmək lazımdır ki, vüsal məqamından ayrılan varlıq qismində əjdahanın görülməsi faktı yalnız klassik lirika nümunələrində deyil, folklor örnəklərində də yer alır ("Qaftanın nağılı" buna bariz nümunədir). Belə ki, obrazın janr müstəvisindəki universallığı, sözsüz ki, onun funksional imkanlarından qaynaqlanır. Bu baxımdan sufi ədəbiyyatındakı əjdaha obrazının folklor motivlərindəki zoomifonimdən törədiyi şəksizdir. Nağıllarda əjdahaya funksional yaxınlığı ilə seçilən ilan obrazı sufiyanə şeirlərdə də

---

[26] Флавий Иосиф. Иудейские древности. Т. I, II, 2000, с.154.
[27] Зубко Г.В. Образ змея в мифологических представлениях фульбе. Религии мира. История и современность. Ежегодник 1988. М., Учитель, 1990, с.207.
[28] Кощнельсон И.С.Папирус весткар и Библейское сказание о Моисее. Палестинский сборник Выпуск 13 (76) Памятники писменности и литературы Ближнего Востока М.Л., Академия Наук СССР. 1965, с.44.
[29] Rumi Mövlana C. Məsnəvi. Ic. Naxçıvan, "Əcəmi", 2012, 504s.

öz paralel semantik yükü ilə çıxış edir.

*Künci-viranədə şahmar kimi qıvrıl yat,*
*Talibi gənc olan çəkməlidir rənci mühən.*[30]

Və yaxud Bakidə oxuyuruq:

*Əfidi, zülfi-yar degil tari-mu, könül,*
*Əfi nijada bavər edib düşmə xu, könül.*[31]

Lakin əjdaha-ilan obrazlarının birmənalılığı haqqında danışmaq çətindir. Belə ki, bir növ ambivalent səciyyə daşıyan semantikaya malik bu obraz özündə qoruyuculuq funksiyası ilə bağlı müsbət çalarlıq da ehtiva edir. "*Əjdahanın gizli xəzinələri qoruması,... Allahın yaxınlığına naməhrəmləri... buraxmaması kimi yozulur*".[32] M. Hatəminin *"Türk, türkmən əsatirlərində xeyirxah əjdaha etiqadı olması"* fikrinə istinadən ehtimal etmək olar ki, müsbət əjdaha obrazı məhz sufi və türk təfəkkürlərinin simbiozunun məhsuludur.[33]

**"XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin yaradıcılığının mövzu və məzmun xüsusiyyətləri"** adlı II fəslin I yarımfəsli **"XIX əsr Qarabağ ədəbi mühitində ictimai-siyasi motivlər"** adlanır. Bu yarımbaşlıqda XIX əsr Azərbaycan ədəbiyyatı tarixində satirik şeir cərəyanının formalaşması və zənginləşməsində Qarabağ sənətkarlarının rolu müəyyənləşdirilir.

Bu dövrdə Qarabağ ədəbi mühitinin nümayəndələrinin yaradıcılığında əksini tapan ictimai-siyasi və əxlaqi məzmunlu örnəklər dövrün mənzərəsini canlandırmaqla yanaşı, ədiblərin ictimai-siyasi görüşləri haqqında da təsəvvür yaradır. "*İbrahim Tahir Qarabaği (Musayev) əsasən lirik şair olsa da, onun yaradıcılığında sırası gəldikcə son dərəcə ciddi, dövrün qlobal məsələlərinə həsr edilmiş şeirlərə də rast gəlirik. Bu qəbil şeirlərində o, müasiri olduğu böyük satirik şairimiz Mirzə*

---

[30] Müctəhidzadə. Şeirlər. (əlyazma). D- 623 /10600, s.34.
[31] Baki. Riyazül-məhəbbət. (əlyazma). cəmi 90 vərəq. B- 5615 /7240, 48[b].
[32] Fətəliyeva N.Təsəvvüf ədəbiyyatında əjdaha obrazı. Xəbərlər N1-2. 2000, s.38.
[33] Hatəmi M. Türk xalqları folklorunda əjdaha surətinin rəmzləri. Azərbaycan SSR Elmlər Akademiyası Xəbərləri. 1969, N2, s.34-35.

*Ələkbər Sabirin yolu ilə gedərək cəmiyyət üçün faydalı olan fikirlər irəli sürür, ictimaiyyətin rast gəldiyi bəlaları aradan qaldırmağa cəhd göstərirdi*".[34]

Sədi Sani Qarabaği, Məmo bəy Məmayi və digər sənətkarların ictimai-siyasi məzmunlu əsərlərində aparıcı mövqeyə malik satiraya gəlincə isə qeyd etmək istərdik ki, mədəniyyət tarixndə gülüşün bir növü olan satira bir ədəbi priyom kimi konkret tarixi şəxsiyyəti, dövrün sosial eybəcərliklərini tənqid atəşinə tutur, başqa sözlə, gülüşün məhz bu növü vasitəsilə insan xislətindəki nöqsan və qüsurları təmizləmək, islah etmək əsas götürülür. Burada əsas məqsəd gülmək deyil, cəmiyyətdəki eybəcərliyə hücum, onlara qarşı mübarizədir. Azərbaycan ədəbiyyatında satiranın ilkin nümunələri isə əsasən şəxsi zəmində subyektiv fikirlər əsasında qələmə alınan, ədəbi kanonlara uyğun gəlməyən vulqar sözlərlə zəngin həcv nümunələri olmuşdur. Həcv janrında qələmə alınmış örnəklərdən söz açılarkən dünya ədəbiyyatında onun analoqu kimi işlədilən epiqramma, invektivin mənşəyi, səciyyəvi cəhətləri ilə bağlı problemə diqqət yönəldilmişdir.

Epiqramma şəxsi münasibətləri əks etdirməklə yanaşı, siyasi məsələlərə də öz münasibətini sərgiləməsi səbəbindən dolayı bir çox hallarda onun analoqu kimi götürülən həcvdən daha geniş mahiyyət kəsb edir. Bu baxımdan, həcv bir çox cəhətdən epiqramma ilə səsləşməsinə rəğmən, sözügedən ədəbi janrların invektivə daha çox uyarlı olması səbəbindən dolayı, zənnimizcə, onunla eyni mənşəli qəbul edilməsi daha məqsədəmüvafiqdir. Satirik gülüş növlərindən olan, gözlənilməz hücum, tənqid əsasında şəxsi münasibətləri sərgiləyən invektivin(latınca invectiva - ədəbsiz nitq və ya invehor – hücum edirəm)[35] ilk nümunələri hələ antik Roma ədəbiyyatında yaranmışdır.

Qarabağ sənətkarlarının yaradıcılığında subyektiv məzmunlu

---

[34] Kərimov R. İbrahim Tahir Qarabaği. Əsərləri. Bakı, Elm və təhsil, 2013, s.25-26.

[35] Литературный энциклопедический словарь. Под общий редакцией В.М.Кожевникова и П.А.Николаева. М., Советская энциклопедия, 1987, с.121.

həcvlərlə yanaşı ictimai-siyasi məzmunlu satirik şeir nümunələri də vardır. Buna örnək olaraq M.M.Nəvvabın S.Ə.Şirvaniyə ünvanladığı və yaradıcılığının maraqlı, eyni zamanda ziddiyyətli məqamlarından biri kimi meydana çıxan həcv nümunəsini göstərmək olar."Məclisi-fəramuşan" yaradıcısı və rəhbəri "dinə ziyan vuran və yenilik yaradanlara" ünvanladığı şeirini də həcv janrında qələmə almışdır və ən qəribəsi də Nəvvabın həcv etdiyi şəxslər sırasında adları keçən millət xəyanətkarlarının kimliyinin izahı ilə bağlıdır: müəllif onların hakim rejimə qarşı çıxanlar olduğunu bildirir:

*O şahənşah ki, xəllaq özü kəsb qılıb,*
*Fikrü zikri o şəhin şərə himayət edən əst.*[36]

Başqa sözlə, burada ədib şahların "Allahın kölgəsi" altında olan şəxslər olduğu barədə həmin dövr çar Rusiyası və şah İranında ən müxtəlif dinlərə məxsus ruhani şəxslərin təbliğ etdikləri və nəticə etibarilə imperialist rejimin uzun ömürlülüyünü təmin etməyə yönəlmiş yayğın fikirləri dolayısı ilə dəstəkləmiş olur. Daha sonra oxuyuruq:

*Xain olmaq necə insafdı bir böylə şəhə,*
*Millətə ömri-giranmayəsini sərf edən əst.*[37]

Ömrünü xalqının tərəqqisi yolunda sərf edən hər hansı bir şəxsə - onun tutduğu vəzifədən, rütbəsindən asılı olmayaraq asi olmaq, əlbəttə, heç kəsə, ələlxüsus, millətpərvər şəxslərə yaraşan iş deyil. Lakin burada nə millət o millətdir, nə də şah o şahdır. Çünki İran hökmdarı öz rus həmkarı kimi, bir millətin ikiləşmiş yurdu olan cənublu-şimallı vətənimizin tərəqqi və inkişafında ən az maraqlı olan şəxslərdən idi və şairin müdafiəsinə qalxdığı şah millətin bir olma arzularını puç edən istibdadın canlı simvolu idi. "Məclisi-fəramuşan"ın fəal üzvlərindən olan Baxış bəy Səbur da şeirin qarşısına ciddi tələblər qoyan bir sənətkar kimi dəyərsiz əsərlər qələmə alan, sxolastik poeziyanın təsirindən yaxa qurtara bilməyən Dizaq mahalının şairlərini tənqid edərkən həcv janrına üstünlük vermişdir.

Lakin XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin yaradıcı-

---

[36] Nəvvab. Divani-torki. cəmi 92 vərəq. (əlyazma) Б- 7548 /11 210, 13[b].
[37] Nəvvab. Divani-torki. cəmi 92 vərəq. (əlyazma) Б-7548/11210.

lığında təsadüf edilən həcv nümunələri əsasən "həzyan", "mənasız söz" kimi dəyərləndirilən, fərdi münasibətlə qələmə alınmış örnəklər səviyyəsindən kənara çıxa bilməmişdir. "Məclisi-üns"ün ilk təşkilatçılarından olan M.R.Fənanın Fatma xanım Kəminəyə müraciətən qələmə aldığı "*Ey təkyə sahibi, nədir bu bəzmi-pürhəvəs, Zövq əhli yandı atəşdə misli-xarüxəs*" mətləli şeir nümunəsi və Fatma xanımın da öz növbəsində ona cavab olaraq *"Düşdün xəyali xama bizə eylədin həvəs, Huri olurmu dildar ilə aləmdə həmnəfəs"* [38] deyə yazdığı 11 beytlik örnəyi şəxsi münasibətlərin təzahürü kimi qiymətləndirilə bilər.

**"Qarabağ ədiblərinin yaradıcılığında erməni-müsəlman davası mövzusu"** başlıqlı II yarımfəsildə M.Nəvvabın "Tarixi rəzm və şurişi tayifeyi ərməniyə" və M.R.Fənanın "1905-ci il hadisəsi" əsərləri, o cümlədən bir sıra poetik nümunələr əsasında 1905-1906-cı illərdə erməni quldurlarının xalqımızın başına gətirdiyi olmazın müsibətlərdən söz açılır.

XIX əsrin son illərində yaranan "Armenakan", "Daşnaksutyun" və "Hınçak" erməni siyasi-terrorçu partiyaları öz məqsədlərinə nail olmaq üçün ilk öncə Türkiyənin Şərqi Anadolu vilayətlərində, sonra isə Cənubi Qafqazda kütləvi qırğınlar törətmiş və terror aksiyaları həyata keçirmişlər. 1895-1896-cı illərdə Şərqi Anadoluda xarici qüvvələrin təhriki ilə baş qaldıran erməni üsyanları yatırıldıqdan sonra həmin iğtişaşların təşkilatçılarının və icraçılarının əksəriyyəti Cənubi Qafqazda, əsasən də İrəvan və Yelizavetpol (Gəncə) quberniyalarında yerləşmişlər. Rus müəllifi Nikolay Şavrovun yazdığına görə, 1896-cı ildə Cənubi Qafqazda 900 min erməni yaşamışdırsa, 1908-ci ildə 1,3 milyon erməninin məskunlaşdığı qeydə alınmışdı. Deməli, təkcə bu dövrdə kənardan Cənubi Qafqaza 400 min erməni gəlib yerləşmişdi. [39]

Bu dövrdə Qarabağ rus çarizminin məkrli planlarının obyektinə çevrilmişdir. Sonralar Peterburqun sözəbaxan buyruq qullarına çevrilərək Azərbaycana qarşı ən qorxulu silah kimi istifadə edilən, Mir Möh-

---

[38] Seyid Əzim. inv.9060. Arxiv №5, sax.v.67.

[39] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. С. Петербург, 1911,s.64.

sün Nəvvabın "Tarixi rəzm və şurişi tayifeyi ərməniyə" və Mirzə Rəhim Fənanın "1905-ci il hadisəsi" əsərlərində haqqında danışılan iğtişaşlara zəmin yaradan ermənilərin kütləvi surətdə köçürülməsinə başlanılmışdı. Mahmud İsmayılovun qeyd etdiyi kimi, həmin qısa dönəmdə Azərbaycanda 10 minlərlə erməni ailəsi yerləşdirilmişdi.[40] Bunun nəticəsində "*artıq 1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54841 ailənin 29350-nin azərbaycanlı, 18616-nın isə erməni ailəsi olduğu göstərilir*".[41] Yeri gəlmişkən qeyd edək ki, Həsənəli Xan Qaradağinin Qarabağ tarixinə dair əlyazmasına əsasən, hələ *"1845-ci ildə erməni camaatı Qarabağı "Xəmseyi-Əramənə" adlandırmış və beş mahala təqsim etmişdir ki, həmin mahallar da erməni məlikləri tərəfindən idarə olunurdu"*.[42]

XX əsrin əvvəllərində erməni millətçilərinin törətdiyi qırğınlardan bəhs edən əsərlərdən biri Mirzə Rəhim Fənanın "1905-ci il hadisəsi" əsəridir. N-Q1/1, 7078 şifrəsi altında qorunub saxlanılan bu risalənin birinci cildində tariximizin ən faciəli, qanlı səhifələrindən birini təşkil edən 1905-ci ildə xalqımıza qarşı törədilmiş qətliamın baş vermə səbəbindən müfəssəl şəkildə bəhs edildiyindən, ikinci clddə acı olayların sadəcə təsviri verilməklə yetinilmişdir.M.R.Fənanın bu əsəri qələmə almaqda başlıca məqsədi müsəlmanlara qarşı acıma hissi oyatmaq, onların carəsiz duruma düşmələrini ifadə etmək deyil, gələcək nəsilləri İslam ümmətinin başına gətirilmiş bu olmazın müsibətlərdən xəbərdar etməklə onları erməni şovinizminin bir daha baş verəcək zərərli fəaliyyətinin qanlı nəticələrindən qorumaq olmuşdur.

İkinci fəslin **""Məclisi-üns" və "Məslisi-fəramuşan" üzvlərinin yaradıcılığında maarifçilik ideyaları"** adlı üçüncü yarımbaşlığında bu ictimai-siyasi hərəkatın nəzəri məsələlərindən bəhs edildikdən sonra qarabağlı sənətkarların yaradıcılığındakı mütərəqqi ideyalardan

---

[40] İsmayıl M. Azərbaycan tarixi. Bakı, 1997, s.220.

[41] Xəlilov X.D. Qarabağın etnik tarixindən. EA Xəbərləri. Tarix, fəlsəfə, hüquq. №3, 1988, s.43

[42] Həsənəli xan Qaradaği, 8a Tərcümeyi-hal və Qarabağ tarixinə aid. 11 vərəq. Б-1949/3574

söz açılır.

XIX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus cizgilər əlavə olunmaqla müşahidə olunan maarifçilik ideyaları Qarabağ məclislərinin nümayəndələrinin yaradıcılığında da yer alır. Elm və təhsilin yüksək qiymətləndirilməsi və təbliği, cəhalətin, mövhumatın tənqidi şəklində özünü büruzə verən bu təmayül, demək olar ki, bütün məclis nümayəndələrinin yaradıcılığında da öz əksini tapmışdır.

"Məclisi-fəramuşan"ın rəhbəri dövrünün bir çox maarifçiləri kimi, istər özünün ayrı-ayrı şeirlərində, istərsə də didaktik məzmunlu əsərlərində elmə dair fikirlərə geniş yer ayıraraq bilikli olmağın məziyyətlərini oxucularına aydınlaşdırmağa çalışır. Maarifpərvər ziyalının farsca qələmə aldığı, müqəddimə, 24 məqalə və sonluqdan ibarət "Nurül-ənvar" (AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan bu əsəri (D-269/10246) müəllif 1310-cu (1892) ildə yazmış, 1316-cı (1898) ildə isə köçürmüşdür) əsərində dini nəsihətlər üstünlük təşkil etsə də, elmin əhəmiyyətindən bəhs edən, şərab və qumarın əleyhinə yazılmış mülahizələr də mühüm yer tutur.Yeri gəlmişkən, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun Fondunda saxlanılan "Müseyibnamə" (B-569/6788) adlı əlyazmada diqqətimizi M.M. Nəvvabın məsələyə əsl maarifçi-ziyalı ruhu ilə yanaşması cəlb etdi. M.M. Nəvvab əlyazmada yazır: "*Deməliyəm ki, bu "Müseyibnamə" əvvəlcə fars dilində idi və ona görə bəziləri deyirdilər ki, "Müseyibnamə"də yalan və boş sözlər çoxdur. Məhz elə ona görə də mən Allahın mərhəmətinə sığınmış Hacı Seyid Əhmədağa Ağamirzadəyi Qarabağinin oğlu Nəvvab Mir Möhsün bu kitabı fars dilindən türkü dilinə tərcümə edib yalan və əlavə yerlərin ləğv etdim və həqiqətə uyğun yerlərin saxlayıb maraqlananlara təqdim etdim*".[43]

XIX əsr Qarabağ məclisləri nümayəndələrinin yaradıcılığında maarifçilik ideyaları ilə bağlı müşahidə olunan başlıca təmayül kütləvi savadsızlığın aradan qaldırılmasına çağırış, təhsilin təbliği kimi məsələlərlə bağlıdır. Mir Mehdi Xəzani insanın kamilləşməsini cəmiyyətdəki problemlərin əsas həlli yollarından biri kimi görür, lakin

[43] Nəvvab M.M. Müseyibnamə. B-569/6788, 79[a].

bu işdə niyyətin, insanın əməllərinin, cəmiyyət naminə çalışmasının mühüm şərt olduğunu yazır:

*Qiyməti hər kimsənin əqvalü göftarındadır,*
*Əql məlum eyləməz tainki göftar olmasa.*[44]

XIX əsr Qarabağ sənətkarları gənc nəslin maariflənməsinin qeydinə qalır, onların təlim-tərbiyəsi ilə məşğul olurdular. Konkret olaraq qeyd edək ki, "Məclisi-fəramuşan" rəhbəri 1890-cı ildə özünün təşəbbüsü ilə açılan yeni tipli məktəbdə dərs demiş, qiraətxana təşkil etmiş, Azərbaycan dilinə dair dərs vəsaiti hazırlamış, "Kəşfül-həqiqə", "Nurül-ənvar", "Nəsihətnamə" və s. kimi əsərlərində millətin tərəqqisində elmin, təhsilin xüsusi əhəmiyyətini qeyd etmişdir.

İbrahim Tahir *"bir maarifçi kimi elmin əhəmiyyətindən bəhs edən şeirləri ilə insanların zehninə, şüuruna təsir etməyə, onları maarifə yönəltməyə çalışmış, mülayim davranışın, həlim sözlərin, yumşaq rəftarın nəticəsini görə bilmədikdə qəzəblənərək satirik bir şairə çevrilmiş, cəmiyyət və mühitdə olan eybəcərlikləri – nadanlığı, cəhaləti, xudpəsəndliyi, təkəbbürü və sair qeyri-insani keyfiyyətləri bütün çılpaqlığı ilə qamçılamışdır.*[45]

Ərəb əlifbasının Azərbaycan-türk dilinin fonetik xüsusiyyətlərini tam əks etdirə bilmədiyindən bu əlifbanın dəyişdirilməsi məsələsi Azərbaycanın bir çox maarifpərvər ziyalıları kimi Qarabağ sənətkarlarını da məşğul edən problemlərdən olmuşdur. Bu sahədə ən mühüm xidmətlər Azərbaycan mədəniyyətinin, bədii, ictimai-siyasi, fəlsəfi, ədəbi-tənqidi fikrinin görkəmli nümayəndələrindən olan M.F.Axundzadəyə məxsusdur. M.F.Axundzadə öncə əlifbada müəyyən dəyişikliklər aparılması fikri ilə çıxış etsə də, sonrakı mərhələlərdə yeni əlifbanın yaradılması təklifini irəli sürmüşdür. Həsənəli xan Qaradaği də M.F.Axundzadənin bu islahatını təqdirlə qarşılamış, M.M.Nəvvab isə "Batilüs-sehr" adlı risaləsində ərəb əlifbasının əhəmiyyətindən bəhs edərək yazmışdır:

---

[44] Mir Mehdi Xəzani. Şeir məcmuəsi. cəmi 126 vərəq. B-8074/11973, 36[a].
[45] Kərimov R. İbrahim Tahir Qarabaği. Əsərləri. Bakı, Elm və təhsil, 2013, s.29.

اگر حروفات رشدیه و شبه آن را استعمال نموده بعد از این قران و کتاب را با آن حروفات مر قوم داریم در آن وقت کرور کرور کتابهای ما چگونه خواهد شد؟

*(Əgər Rüşdiyyənin əlifbası və ona oxşar hərflər istifadə olunarsa, bundan sonra Quran və kitab(lar)ı o hərflərlə yazsaq, o zaman bizim yüz minlərlə çap olunmuş kitablarımızın taleyi necə olacaq?).*[46]

Mir Möhsün Nəvvab "Kəşfül-həqiqə" adlı didaktik məzmunlu əsərində üzdəniraq mollaları, zahidləri həcv yazaraq təhqir etmir, əksinə, müəllif riyakar ruhanilərin nöqsanlı fəaliyyətindən bəhs edir, onların əsl mahiyyətini faş edir, həmvətənlərini ayıltmaqla bu kəslərdən uzaq olmağa səsləyir. "Təkəbbürlü və riyakar zahidlərin əhvalatı" adlı məqalədə oxuyuruq:

ای بسا زاهد که با الوان قبا　　　بر سرش دستار و در دستش عصا
سبحه ء صد دانه اندر دست خویش　　　لب بجنبش سرفرو افکنده پیش

*O qədər çox zahid var ki, rəngbərəng paltarla başında əmmamə, əlində əsa, (öz) bir əlində yüz dənəli təsbeh (ibadət vaxtı - A.H.) başını əyib dodaqlarını tərpədirlər.*[47]

Xalq arasında bilikli və savadlı bir müəllim kimi hörmət qazanan Həsənəli xan Qaradaği 1970-ci ildə Şuşada açdığı üsuli-cədid məktəbində ilk dəfə olaraq parta və yazı taxtasından yararlanmaqla yanaşı, təlim prosesində yeni üsullardan istifadə etmiş, ərəb əlifbasını uşaqlara səsli üsulla öyrətmiş və tədrisi asanlaşdırmaq üçün əlyazması şəklində vəsait də tərtib etmişdir.[48]

Beləliklə, XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında öz əksini tapan maarifçilik ideyaları dövr üçün mütərəqqi, cəsarətli və novator fikirlərlə zəngin olmaqla yanaşı, yeni istiqamətin, fərqli baxışın, realist prinsiplərin təşəkkülü, daha yüksək ideyaların formalaşmasını şərtləndirməsi ilə əhəmiyyətli rola malik olmuşdur.

II fəslin **""Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin lirik əsərlərində üslubi fiqurlar"** adlı sonuncu yarımbaşlığında qeyd

---

[46] Nəvvab. Batilüs-sehr. (farsca). B-2372/13348, 8ª-8ᵇ.
[47] Nəvvab. Kəşfül həqiqə.B-863/6494, 95ᵇ.
[48] Kərimov R. Görkəmli maarifpərvər şair Həsənəli xan Qaradaği. Həsənəli xan Qaradaği. Əsərləri. Bakı, Şuşa, 2001, s.5.

edilir ki, XIX əsr  Qarabağ ədəbi mühiti nümayəndələri lirik əsərlərini həm klassik, həm də xalq şeiri üslubunda yazmışlar. Tovhid, minacat, qəzəl, qitə, mürəbbe, müxəmməs, müsəddəs və s. kimi klassik şeir janrlarında qələmini sınayan şairlər qəzələ üstünlük vermişlər. Qəzəllərdə diqqəti çəkən amillərdən biri onların xalq dilinə bir qədər yaxın şirin və saf bir dildə yazılmasıdır.

XIX əsr  Qarabağ şairlərinin yaradıcılığında klassik janrda qələmə alınmış əsərlərdəki vəfalı yar axtarışı, ona qovuşmaq ehtirası, bəzən isə məşuqun vəfasızlığından ahü nalə etmək Füzuli poeziyasının əhval-ruhiyyəsini xatırlatsa da, ümumilikdə  lirik qəzəllərdə, demək olar ki, nikbin ruh hakimdir. M.Ə.Bülbül, M.Məxfi, M.Yüzbaşov, M.Nəvvab və digər "Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvləri də fərqli janrlı əsərlərində istər lirik təsvir və tərənnüm, istər qəhrəmanın mənəvi durumunu əks etdirmək, istərsə də bədii məkan və zaman yaratmaq məqsədilə gözəl bahariyyə nümunələri də yaratmışlar.

XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında dünyəvi mahiyyət kəsb edən bahariyyələrlə yanaşı, irfani obraz və motivlər üzərində qurulmuş bahariyyələr də mühüm yer alır.

"Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin poetik örnəklərinin təhlili zamanı ağacların, çiçəklərin Allaha səcdədə bulunmaq üçün əllərini duaya açan mömin bəndələr kimi səciyyələndirilməsi kimi hallara da təsadüf etdik. C.Rumidə oxuyuruq: "*Ağaclar duyana söz söylər. Yaşıl dilləriylə, uzun əlləri ilə torpağın içindəki sirləri anladar... Könül əhlinin duyğuları suyun, torpağın, çamurun sözünü duyar*".[49] C.Ruminin sadiq ardıcıllarından olan M.Nəvvab yaradıcılığında həmin fikir belə ifadə olunur:

گل و بلبل و سبزه و جويبار
همه شغلشان ذکر پروردکار

*Güllərin, bülbüllərin, çəmənlərin, çayların,*
*Peşələri ancaq Allahın zikridir.*[50]

---

[49] Şıxıyeva S. Nəsiminin bahariyyəsi. "Azərbaycan-irs" jurnalı. №6-7. 2001, s.122.
[50] Nəvvab M.  Təzkirə. Əlyazma. M-67/2364, 138$^b$.

“Məclisi-üns”, “Məclisi-fəramuşan” üzvləri həm klassik, həm də xalq şeiri üslubuna müraciət edərkən öz əsərlərinin fərdi üslubi keyfiyyətlərini qorumağa müvəffəq olmuşlar. Belə ki, sözügedən söz xiridarlarının bədii düşüncəsi, obraza yanaşma texnikası xalq müdrikliyi ilə qovuşaraq öz həllini tapa bilmişdir. Əgər belə demək mümkünsə, xalq düşüncəsi qarabağlı ustadların poetikasını müəyyənləşdirmiş, bu sənətkarlar bir ustad şair kimi sözü fərdiləşdirərək yenidən xalqın ixtiyarına vermişlər. M.Məmayi, M.Ə.Növrəs, H.Qaradaği, M.Ə.Baki və digər Qarabağ sənətkarları qoşa, yanaşı rədifli feillər, alliterasiya, müləmmə və s. kimi poetik vasitələrdən bəhrələnməklə obrazlılıq, bədiilik yaratmağa müvəffəq olmuşlar.

**“XIX əsr Qarabağ ədəbi məclisləri nümayəndələrinin yaradıcılığında fəlsəfi və milli motivlər”** adlı III fəslin I yarımfəsli **“XIX əsr Azərbaycan ədəbi mühitində təriqət məclisləri”** adlanır.

Bəzi faktlar XIX əsrdə Qarabağ ədəbi mühitində “Məclisi-üns” və “Məclisi-fəramuşan”la yanaşı, bu vaxtadək müəyyən səbəblərdən diqqətdən və tədqiqatdan kənarda qalmış digər bir məclisdən – təriqət məclisindən danışmağın mümkünlüyü ehtimalını qüvvətləndirir. “Həzrəti pir” kimi anılan Seyid Mirhəmzə Nigari təkkə-təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi, nəqşibəndi təriqətinin nüfuzlu şeyxidir.

Mürşidi İsmayıl Əfəndinin göstərişi ilə Gümüşlü Saracxanə mədrəsəsində xəlvətə çəkilmiş Seyid Nigari də bu mənəvi saflığın, yüksəlişin axtarışında idi. “Hümayi-ərş” kitabında Seyid Nigarinin farsca divanından verilmiş əlyazma nümunələrində də buna işarə edilir:

این کنج عزلتی که گرفته ست شیخ شهر
ترسم که بگویند کمینگاه شهرتست

*Səhər şeyxin bu üzlət (guşənişinlik) küncünü tutmasına*
*Qorxuram deyərlər ki, şöhrət pusqusundadır.*[51]

Yeri gəlmişkən qeyd edək ki, Nigari əsərlərində sərgilənən əxlaqi problemlər, ilahi eşq mövzusu “Məclisi-üns”, “Məclisi-fəramuşan”

---

[51] Mirzəzadə Mustafa Ağabali. Hümayi-ərş. Qarabağlı Şeyx Mir Həmzə Nigarinin Mənaqibnaməsi. Bakı, Nurlar, 2015, s.497.

üzvlərinin lirikasının aparıcı xəttini təşkil edir. Araşdırmalar zamanı Mir Həmzə Nigarinin ədəbi nüfuzu, çoxcəhətli maraq və zövqünün Sədi Sani Qarabağinin bədii irsinə daha çox təsirinin şahidi olduq. Bu isə təsadüfi olmayıb, sözügedən sənətkarın Nigari ədəbi məktəbinin üzvü olması ilə bağlı idi. Sədi Sani Qarabağinin böyük ustadının ölümü münasibətilə qələmə aldığı maddiyi-tarix də (şair "Fələk" rədifli müxəmməsi və "Aməd" rədifli qəzəlində ustadının ölümünü böyük təəssüf hissi ilə yad etmişdir[52]) müridin mürşidi qarşısında ehtiramının poetik təzahürü kimi dəyərləndirilə bilər. Alim, mütəsəvvif, seyyid və şair bir şəxsiyyət olan Seyid Nigari ənənələrini yaradıcı şəkildə davam etdirən sənətkarlardan biri də Molla Əli Talibi olmuşdur. Şeyx Nigarinin dini görüşünün əsasında Allaha, həzrət Peyğəmbərə və onun əhli-beytinə sonsuz məhəbbət durur.

Fars divanına aid əlyazmalardan birində özünü Abduhu Mir Həmzə kimi təqdim edən şair həm də Nəqşibəndiyyə, Qadiriyyə, Suhrəverdiyyə, Kubrəviyyə və Ciştiyyə fəqirlərinin ayağının tozu olduğunu qeyd edir:

نسئلللهالعافيةوالحمد
اضعفالعبادخادمترابااقدامالفقراءالنقشبنديةوالقادريةوالسهروريةوالكبرويةوالچشتية
السيدالاميرالحمزةالحيدريالباليالحسنيالقرهباغيالبرگشادى.
عبدهميرحمزه

*Allahdan afiyət diləyir və aləmlərin Rəbbinə həmd edirik. Qulların ən zəifi, Nəqşibəndiyyə, Qadiriyyə, Suhrəverdiyyə, Kubrəviyyə və Ciştiyyə fəqirlərinin ayağının tozu,əs-Seyid əl-Əmir əl-Həmzə əl-Heydəri əl-Bali əl-Həsəni əl-Qarabaği əl-Bərguşadi Abduhu Mir Həmzə.*[53]

Bütün bunlar nəinki təriqətlə bağlı ədəbi məclisdən, hətta məktəbdən danışmağın mümkünlüyünü göstərir. Araşdırmalar Seyid Mir Həmzə Nigari ilə bağlı bəzi faktların hələ xüsusi tədqiqata ehtiyacı

---

[52] Kərimov R. Sədi Sani Qarabağinin həyat və yaradıcılığı. Bakı, Elm və təhsil, 2014, s.54.

[53] Mirzəzadə Mustafa Fəxrəddin Ağabali. Humayi-ərş. Qarabağlı Şeyx Mir Həmzə Nigarinin Mənaqibnaməsi. Bakı, Nurlar, 2015, s.497.

olduğunu göstərir. Şairin doğum tarixinin mənbələrdə fərqli şəkildə göstərildiyini yazan N.Məmmədli bu tarixin mənbələrdə hicri 1212 (miladi 1797) olaraq qeydə alındığını yazır.[54] Bu baxımdan Nigarinin doğum tarixini göstərən sənəd xüsusi əhəmiyyətə malikdir.

*"Dağıstan mühacirlərindən Şeyx Hacı Mir Həmzə əfəndi ibn Mir Paşa vəladəti"* 1213/1798-99.[55]

Seyid Mir Həmzə Nigari XIX əsrin ortalarında Qafqazda rus istilasına qarşı meydana gələn cihadın ilk ideya müəlliflərindən biri olmuşdur. Tarixi faktlar bu məsələdə Seyid Mir Həmzə Nigarinin çarizmin Qafqaz siyasətinə - Qafqazda köklü dəyişikliklərə qarşı öz etirazını bildirən, Qafqaz xalqlarının müstəmləkə boyunduruğu altına alınmasına dözə bilməyən Xasay xan Usmiyevlə də eyni mövqeyi bölüşdüyünü göstərir. Xasay xan Usmiyev Qarabağda yaşadığı illərdə Seyid Nigari və müridləri ilə gizli görüşmüşdür. Şuşa qalasında təşkil olunan məclisdə o zamankı Qars mütəsərrifinə məktub göndərilməsi qərarlaşdırılmışdır. Qərara əsasən, Osmanlı hökumətilə rus hökuməti arasında hər hansı bir səbəbdən dolayı meydana gələcək ixtilaflı vəziyyətlərdə iki dövlət arasında düşmənçiliyə səbəb olacaq bir hal baş verərsə, Osmanlı ordusunun hücumunun ardınca Qarabağda Şeyx Hacı Həmzə əfəndi, Şəkidə Əhməd əfəndi, Dağıstanda Xasay xanın dərhal fəaliyyətə keçərək qəfil və ümumi üsyan meydana gətirməyi söz verdikləri bəyan edilirdi.[56]

II yarımfəsil **"XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında təriqətlə bağlı məqamlar və sufizm"** adlanır.

"Məclisi-üns", "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığında sufizm realizmlə çuğlaşmış şəkildə özünü göstərir. Bu baxımdan sözügedən sənətkarların poetik örnəkləri ikili xarakter daşıyır; qarabağlı şairlər eyni simvol və rəmzlərdən həm real gözəli, gerçəkliyi, həm də öz

---

[54] Mir Həmzə Seyid Nigari. Divan. Bakı. Elm və Təhsil, 2010, s.4.
[55] Mirzəzadə Mustafa Fəxrəddin Ağabali. Humayi-ərş. Qarabağlı Şeyx Mir Həmzə Nigarinin Mənaqibnaməsi. Bakı, Nurlar, 2015, s.43.
[56] Mirzəzadə Mustafa Fəxrəddin Ağabali. Humayi-ərş. Qarabağlı Şeyx Mir Həmzə Nigarinin Mənaqibnaməsi. Bakı, Nurlar, 2015, s.72.

irfani görüşlərini əks etdirmək üçün bəhrələnmişlər. Sufiliyə görə, aşiq öz əslindən - haqdan ayrıldığı üçün daim ona qovuşmaq arzusundadır və bu zaman insani mənlikdən arınaraq Yaradana qovuşmaq üçün sufinin özünü ekstaz vəziyyətinə gətirməsindən, müxtəlif ayinlərdən, rəqs və musiqidən istifadə olunur. *C.Triminqemin qeyd etdiyi kimi, "ortadoksal İslam rituallarında lazımi yer tutmamasına rəğmən, Quranın avazla oxunuşu və azan istisna olunmaqla, musiqi sufizmdə böyük rol oynamışdır".*[57] Əgər erkən dönəmlərdə musiqi Haqqa qovuşmağa aparan yolda vasitə idisə, A.Mets əl-Hücviriyə istinadən sonralar bəzi sufilər üçün rəqs ritualının sanki özünüməqsədə çevrildiyini qeyd edir.[58] Bununla belə, istər klassik ədəbiyyatımızın nümayəndələri, istərsə də onların sadiq ardıcıllarından olan Qarabağ sənətkarlarının yaradıcılığında ayin musiqisindən söz açılması musiqinin sufizmdə aparıcı mövqeyini itirmədiyinə əyani sübutdur. Sədi Sani Qarabaği də:

*Rəqs iqlım, nəğmə qıl,*
*kəndiri-eşq üstəyəm.* [59]

beytində C.Rumi tərəfindən təşkil olunan rəqs ritualına işarə edir. Bir çox mənbələrdə "takuro" (ərəb sözü olub "əmək" anlamını verir) kimi adlandırılan bu rəqs ritualına XIX əsr Qarabağ şairlərinin, o cümlədən S.Sani Qarabağinin poetik örnəklərində kifayət qədər müraciət edilmişdir.

*Əshabi-eşqi saqi kefincə məst qılmış,*
*Ərbabi-rəqsə mütrüb çəngü rübab dutmuş.*[60]

Günəş ətrafında dövrə vurmağa müvafiq təsvir olunan bu ritualın icrası zamanı, yuxarıdakı beytdən də aydın olduğu kimi, çəng, rübab, ney və s. kimi musiqi alətləri mühüm rol oynayır. Bu baxımdan aşağıdakı şeir nümunəsi xarakterikdir:

که تا ز دل بز دایند درد و غم یکدم

---

[57] Тримингэм Д.С. Суфийские ордены в Исламе. М.,Наука, 1989. с.161.
[58] Мец А.Мусульманский ренессанс М., Наука, 1966. с.234.
[59] Sədi Sani Qarabaği. Fond 24. Arx.-38. Г[2]77. 9562, s.11.
[60] Sədi Sani Qarabaği. Fond 24. Arx.-38. Г[2]77. 9562, s.10.

بناله دف و طنبور و نای و موسیقار

*... bir anda qəlbimdə olan dərdi, qəmi silə,*
*Dəfin, tənburun, neyin, musiqarın səsi ilə.*[61]

Beləliklə, aparılan araşdırmalar XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin yaradıcılığında sufi terminlərinin kifayət qədər geniş yer alması və sufizmin realizmlə çuğlaşmış şəkildə təzahür etməsi fikrini səsləndirməyə əsas verir.

III fəslin sonuncu yarımbaşlığı **"XIX əsr Qarabağ sənətkarları və folklor"** adlanır. Folklordan ideya, mövzu, süjet, janr və s. ünsürlər götürən "Məclisi-üns", "Məclisi-fəramuşan" üzvlərinin ondan bəhrələnmələri həm ayrı-ayrı əsərlərində, həm də bütöv yaradıcılıqlarında öz əksini tapmışdır.

IX əsr Qarabağ sənətkarlarının poetik örnəkləri dilin paremioloji fondunu təşkil edən, daim öz aktuallığını qoruyub saxlayan alqış və qarğışların öyrənilməsi baxımından da maraqlıdır. Məxfinin:

*Hicran adın o katibi-qüdrət yazan zaman,*
*Ey kaş ki, sıneydi əlində ikən qələm,*[62]

beytindəki qarğış İslam dini ilə əlaqədar yaranmışdır: *"Əbu Hüreyrəyə isnadən Məhəmməd peyğəmbərdən söylənilən bir hədisdə deyilir ki, Allah-Taala əvvəlcə Qələmi yaratmış və ona bütün olacaqları yazmağı əmr etmişdir. Qələm Qiyamət gününədək baş verəcək bütün hadisələri yazdıqdan sonra Allah-Taala ona möhür vurmuşdur. Bu hədisdə Qiyamət gününədək baş verəcək hadisələri yazdıqdan sonra qələmə möhür vurulması ilə bir daha "yazıya pozu yoxdur", yəni alın yazısı fikri təsdiqlənir.*[63] Ayrılıq fəraqına dözə bilməyərək hicrandan giley-güzar edən şair də hicranın taledən, alın yazısından olduğunu anlamış və sözügedən qarğış növünə müraciət etmişdir.

"Məclisi-üns", "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığında geniş yer alan dua və bəd duaların semantik xüsusiyyətlərinə gəlincə isə qeyd edək ki, onlar məhəlli səciyyə daşıyır. A.Agah, Məxfi, Növrəs və

[61] Nəvvab M. Təzkirə. Əlyazma. M-67/2364, 246[b].
[62] Məxfi. Qəzəllər. (əlyazma). A- 272/3875, 100[a].
[63] Qasımova A. Məhəmməd peyğəmbərin meracı. Bakı, Yazıçı, 1994, s.67.

s. kimi sənətkarlar əsasən Qarabağ regionunda geniş yer alan inam və etiqadlara, müqəddəs və övliyalara müraciət etmişlər.

*Bədən qütbündə nöqtə qönçəvəş, dil xarsız qalsın,*
*Dəyən bülbül pərinə, dəhridə pərgarsız qalsın.*
*Rəqibi görməsin ağ gün, cahanda namurad ölsün,*
*Qaradağini yardan hər kim eylər, yarsız qalsın.*[64]

Nümunədəki ağ rəngin semantikasına gəlincə isə qeyd edək ki, bütün dünya xalqlarında ağ rəng işıq, uğur, xoşbəxtlik simvolu olduğundan (bu da çox ehtimal ki, onun Tanrı rəngi hesab edilməsi ilə bağlıdır) şair onun yarından ayrı düşməsinə səbəb olan əğyarı qarğışlayaraq "ağ gün" görməməsini, tək Yaradandan diləyir. Ağ ilə qara rəng həmişə bir-birinə müxalif olaraq qarşı-qarşıya durduğundan və ağın əksinə olaraq sonuncu mənfi çalara malik olduğundan, qəm, kədər, matəm, fəlakət anlamını ifadə etdiyindən bəd dualarda sözügedən rəngin yaratdığı asosiasiyalardan da bəhrələnmişlər.

*Ağ üzüm bəlkə qaralsın rəng ilə,*
*Etməsin töhmət mana biganə xiş.*[65]

Qarabağlı sənətkarların lirik örnəklərində Ənqa, Simurq kimi, əfsanə, nağıl və dastanlarda sehrli gücə malik, zoomorfik surət, xeyirxahlıq hamisi olan obrazlardan da bəhs olunmuşdur. Bir çox tədqiqatçıların diqqətini cəlb edən Simurq mifik obrazı müxtəlif cür səciyyələndirilmişdir. Sufi ədəbiyyatında tez-tez anılan Simurq "*zahirən görünməyən, eşq və haqqın mərifətini anlayan kamil insan, o cümlədən quşların şahı kimi səciyyələndirildiyindən və yaxud "30 quşun əlamətinə malik olduğundan*",[66] zənnimizcə, onun sufi sənətkarların şərh etdikləri kimi, "si mürğ" anlamı daha həqiqətə uyğundur. "*Simürğün tükünü ələ keçirənlərin ən böyük sirrə və ölməzliyə*

---

[64] Həsənəli xan Qaradağı. Əşar. (əlyazma). M-310, 4[a].
[65] Növrəs Qarabaği. Şeirlər. Arx -14 Г-2 (33) fond 13, sax. vah. 50, s.5.
[66] Köksəl B. Şifahi ədəbiyyatda Hüma və Ənqa quşları. "Dədə Qorqud" elmi-ədəbi toplu IV (9), Bakı, 2003, s.51.

*çatacaqlarına*”[67] dair inanc isə məhz onun nəfsi paklıq və mənəvi yüksəliş məqamına malik olmasından qaynaqlanır. XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin irfani məzmunlu poetik nümunələrində sufi ideyaların tərənnümü üçün müqayisəyə Simurq (yaxud Ənqa) mifik obrazlarını gətirmələri heç bir təəccüb yeri qoymur. Belə ki, “*qədim dini təsəvvürlərdə qanadlı canlılar göylərlə əlaqəli olduqlarına və insanlardan fərqli olaraq Tanrıya daha yaxınlaşa bilmək qüdrətinə sahib olduqlarına görə möcüzə, sirr sahibi idilər*”,[68] başqa sözlə desək, Tanrı sevgisi ilə kamilləşib müqəddəs məqama yetərək Haqq ilə bütövləşə bilmişlər. Bu səbəbdən dolayı, özünü haqq yolunun həqiqi yolçuları – aşiqləri adlandıran Baki, Qaradaği, Məxfi və s. kimi qarabağlı ustadlar bu həqiqi aşiq obrazından yararlanmışlar. M.Bülbül yazır:

Səndən məhəbbətə vəfa Simurğu görmək kimidir,
Gözəllərdən məhəbbət mümkün deyil, rəvayət olar.[69]

XIX əsr Qarabağ sənətkarlarının poetik örnəklərində dünya xalqlarının mifik təfəkküründə Feniks kimi anılan Səməndər obrazına daha çox təsadüf edilir. “*Şərq əfsanələrində qaməti gödək, dimdiyi uzun*”[70] kimi səciyyələndirilən Səməndər, yaxud Feniks (hər ikisinin özünü oda vuraraq yandırdıqdan sonra yenidən oddan yaranması və s. kimi cəhətləri onları eyni obraz kimi dəyərləndirməyə əsas verir) Yunan mifologiyasında bəzən Foynik kimi də xatırlanır. Səməndər quşu bəzən Salamandra adlı kərtənkələ növündən olan canlı ilə də eyniləşdirilir. Salamandra odda müəyyən müddət ərzində yanmır, guya xüsusi maddə ifraz edərək atəşin içində doğulur. Mənşəcə Efiopiya ilə əlaqələndirilən sözügedən sehrli quşa bu adın assuriyalılar tərəfindən verilməsinə dair

---

[67] Bahaeddin Ö. Türk mifolojisi, I c. Ankara, Tütk Tarih Kurumu basım evi, 1971, s.23.

[68] Vəliyev İ. Azərbaycan mifik təfəkküründə sehrli quşlar. Dədə-Qorqud. Elmi-ədəbi toplu 1(14), s.45.

[69] Bülbül Məhəmməd. Şeirlər. cəmi 15 vərəq. (əlyazma) inv.7400. fr- 1299 /7460, 14[a].

[70] Həkimov M. Aşıq şeirinin növləri. Bakı, APİ, 1987, s.319.

mülahizələr də səsləndirilmişdir.[71] Xalq şeirlərində, inanclarda, nağıl və rəvayətlərdə xüsusi bir motiv kimi yararlanılan, "500, 1400, 12954 il yaşadığı ehtimal edilən" Səməndər daim məşəqqətlərə məruz qaldığından poetik örnəklərdə əsasən yarına qovuşmaq arzusunda olan aşiqə bənzədilir. Qarabağ sənətkarları da mənəvi iztirablarının ifadə oluna bilməyəcək qədər böyüklüyünü göstərmək üçün özlərini Səməndər quşuna bənzədirlər. Məxfinin aşağıdakı nümunəsində oxuyuruq:

Atəşi-hicrinə yanmaq gəlib ancaq mənə,
Atəşə yanmaqda kəm bilmə Səməndərdən məni.[72]

Rəvayətə görə, ömründən müəyyən bir müddət, bəzi mənbələrə görə, 220 il keçdikdən sonra Səməndər uçmaq qabiliyyətini itirir və uca dağ başında oturub halına uyğun inildəməyə, zarımağa başlayır. O düz on gün ecazkar və yanıqlı səslə oxuduqdan sonra qanadlarını bir-birinə o qədər sürtür ki, öz sinəsindən qalxan alovdan bədəni alışıb yanır və külə dönür. Quşun alovu üstündə oturduğu ot-ələfə düşür, ot-ələf də alov tutub yanır. Sonra quşun yerində - külün altında göy rəngli bir yumurta qalır. Həmin külün içərisindəki axırıncı qor öz-özündən közərir, qırx gün sonra həmin yumurtadan bir bala çıxır və o da əcdadının yolu ilə gedərək böyüyür, canlanır və yenidən Səməndərə çevrilir.[73] Digər bir əfsanəyə əsasənsə, bu sehrli quş özünü yuvasında topladığı ətirli otlarla yandırmış və ya otların ətrindən boğularaq ölmüşdür. Onun külündən isə yeni bir quş yaranır.[74] Beləcə, sonsuz olaraq davam edən və nəhayətsiz dərəcədə təkrar olunan bu hal Haqqın cəlal müşahidəsindən məhrum qalan, lakin onun vüsalına yetmək arzusu ilə qovrulan aşiqlərin əhval-ruhiyyəsinə uyğun gəldiyindən sonuncular bu obraza tez-tez müraciət etmişlər.

Səməndərtək gərək eşq əhli yansın,

---

[71] Большой энциклопедический словарь. Глав.ред. Е.М.Мелетинский. М., Изд.Большая Российская энциклопедия. 1998, с.571.
[72] Məmai və Məxfi. Şeirlər. Б-724/3283 (1), s.212.
[73] Bəydili C. Türk mifoloji sözlüyü. Bakı, 2003, s.319.
[74] Большой энциклопедический словарь. Глав.ред. Е.М.Мелетинский. М., Изд.Большая Российская энциклопедия. 1998, с.571.

Bəli, aşiq yeri kuyi-fənadır.[75]

XIX əsr Qarabağ sənətkarları, eləcə də “Məclisi-fəramuşan” rəhbəri Səməndəri Haqq yolunun yolçusu – qəlbi hicran odundan alışıb yanan həqiqi aşiq kimi səciyyələndirmişlər:

پر از آذر دل و جانم ز هجران
هم او پر سوز مانند سمندر

Mənim ürəyim və canım hicran odu ilə doludur,
O da Səməndər quşu kimi atəşlə doludur.[76]

Mirzə Yəhya bəy Qarabaği də Səməndərin odda alışıb yanması hadisəsinə işarə edərək yazır:

Səri-zülfündə könlüm atəşin rüxsar dövründə,
Tutub məskən Səməndərvəş od üzrə, gər, məkanım var.[77]

Beləliklə, Simurq, Səməndər kimi xalq yaradıcılığında geniş yayılmış mifoloji obrazlar XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında da işlənmə tezliyi ilə seçilir.

Beləliklə, qarabağlı söz ustadlarının yaradıcılığında folklordan mövzu və janr baxımından istifadə səciyyəvi cəhətlərdən hesab oluna bilər. Qarabağ sənətkarlarının xalq yaradıcılığı üslubunda yazılmış şeirləri içərisində ictimai-siyasi məzmunlu, sufi-dərviş, dini-mistik məzmunlu nümunələrə təsadüf olunsa da, bu üslubda şeirlərdə dünyəvi eşqin tərənnümü,real məhəbbət motivləri əsas yer tutur.

“**XIX əsr Qarabağ şairlərinin yaradıcılığında antroposentrik yanaşma”** başlıqlı IV fəslin I yarımfəsli “**XIX əsr Qarabağ şairlərinin yaradıcılığında koqnitiv-psixoloji xüsusiyyətlərin əksi”** adlanır. Müasir dövrdə multidistiplinar yanaşma, müxtəlif elm sahələrinin nailiyyətlərindən bəhrələnərək aparılan təhlil və tədqiqatlara üstünlük verilməsi bu sahədə hərtərəfli və dolğun nəticələrin əldə olunmasına şərait yaradır. Bədii ədəbiyyatın antroposentrik və koqnitiv-psixoloji yanaşma tətbiq olunmaqla araşdırılması insan amilinin həm müəllif, həm də əsərin ünvanlandığı oxucu, onun təfəkkür tərzi və

---

[75] Baki. Riyazül-məhəbbət. (əlyazma). Cəmi 90 vərəq. B-5615 /7240, 39[b].
[76] Nəvvab M. Təzkirə. Əlyazma. M-67/2364, 240[b].
[77] Nəvvab M. Təzkirə. Əlyazma. M-67/2364, 492[a].

psixoloji durumu baxımından, psixoloji və praqmatik istiqamətdən təsir gücü və doğurduğu hisslər çərçivəsində dəyərləndirmək imkanı yaradır. "*Bədii mətn koqnitiv paradiqma müstəvisində müəllifin gerçəklik haqqında təsəvvürünü əks etdirən, onun dünyaya fərdi baxışı kimi çıxış edən mürəkkəb işarələr sistemi kimi dərk olunur*".[78]

Bədii mətnin öyrənilmə istiqamətləri içərisində funksional-koqnitiv və ya konseptual aspekt xüsusi əhəmiyyət kəsb edir. Bədii mətnin koqnitiv baxış bucağından təhlili müəllifin dünyagörüşü, düşüncə tərzi, dünyanı dərki ilə bağlı məqamları ortaya çıxarmağa imkan verməklə yanaşı, həm də yazıçının diqqət mərkəzində saxladığı məsələləri, konseptual məqamları, maraq dairəsini, ictimai, siyasi, sosial, hətta estetik baxışlarını belə müəyyən etmək üçün ciddi əsas verir. Bu təhlil əsərdə müəllifin şəxsi dünyagörüşünün, əsərlərində əks olunan konseptin nüvəsini təşkil edən ideyaların aşkarlanmasında açar rolunu oynayan fərdi üslubun cizgilərini meydana çıxarmaq baxımından da diqqəti cəlb edir.

Ümumi təmayül kimi diqqəti cəlb edən insanın daxili aləminin tərənnümü Qarabağ ədəbi məclisləri nümayəndələrinin yaradıcılığında da özünü göstərir. Bəzən ümumi şəkildə mənəvi durumun tərənnüm olunmasına, bir çox hallarda isə fərdi əhval-ruhiyyənin ifadəsinə təsadüf edirik.

Yenə ya Rəb, nə qəmgindir mənim bu şad olan könlüm,
Rumuzi-eşqdən agah olub, ustad olan könlüm.[79]

Koqnitiv yanaşmada başlıca anlayışlardan olan konsept müxtəlif alimlər tərəfindən fərqli şəkildə səciyyələndirilmişdir. Onu *"hər hansı əşya və ya hadisə ilə bağlı təsəvvür, anlayış, bilik, assosiasiya yığını"* adlandıranlar,[80] *"dəyər, obrazlılıq və məna tərəflərinə malik çoxtərəfli*

---

[78] Арутюнова Н.Д. Истина: фон и коннотации / Отв. ред. Н.Д. Арутюнова // Логический анализ языка: Культурные концепты. М., Наука, 1991. С. 26.

[79] Natəvan. Şeirləri. C-218/9171, s.112ª.

[80] Степанов Ю.С. Константы. Словарь русской культуры. Опыт исследования. М. Языки русской культуры, 1997, с.43.

*mənalı varlıq"* kimi qiymətləndirənlər,[81] eləcə də *"insanın bilik və təcrübəsini əks etdirən mental təfəkkür vahidi, ... dünyanın bütövlükdə mənzərəsinin insan psixikasında əks olunması"* şəklində təqdim edənlər[82] də var.

XIX əsr Qarabağ şairlərinin yaradıcılığında "kədər", "hüzn" konsepti xüsusi xətt kimi diqqəti cəlb edir. Bir çox məqamlarda (məs., X.Natəvanın yaradıcılığında) bu şəxsi həyatda yaşanan faciə və xoşagəlməz hadisələrlə bağlıdırsa, bəzən ümumi şeir ənənəsi ilə əlaqələndirilə bilər.

Bədii ədəbiyyatda istifadə olunan eyni bir rəmz müxtəlif şəkildə mənalandırıla, fərqli ifadə planına malik ola bilər. X.Natəvanın yaradıcılığında xüsusi çəkiyə malik "gül" rəmzi bəzən sevgili, bəzən sirdaş, bəzən əziz insan – övlad anlayışının qarşılığı kimi təqdim olunur:

Əgərçi xoşdu mənə ətri, həm səfası gülün,
Cəfası çoxdu, nə hasil ki, yox vəfası gülün.[83]

Bədii konseptin növləri arasında adətən əsas və mədəni konsept fərqləndirilir. Təməl hesab edilən əsas konsept cəmiyyətin mənəvi-ruhi durumunu və həyatını əks etdirən anlayışları ehtiva edən universal konseptlərdir. Bu konseptlər konkret tarixi dövrlərdə sosiomədəni məkanda formalaşır.[84] A.Vejbitskaya əsas konseptləri universal olduqlarından protokonsept adlandırır.[85] Ümid, məhəbbət, arzu ... bura daxildir.

Bədii konseptin mədəniyyət amili ilə bağlı növü koqnitiv-semioloji vahiddir və etnomədəni dünyagörüşü ilə əlaqədar olaraq

---

[81] Карасик В.И. Языковой круг: личность, концепты, дискурс. Перемена, 2002, с.129.
[82] Кубрякова Е.С. Краткий словарь когнитивных терминов. М., Наука, 1996, с.90.
[83] Natəvan. Şeirləri. 229 səhifə. C- 218/ 91 71, 98[a].
[84] Талми Л. Отношение грамматики к познанию. Л.Талми. Вестник МГУ. Сер. 9. Филология. 1999. №1. с. 92.
[85] Вежбицкая, А. Семантические универсалии и описание языков / А. Вежбицкая / Пер. с англ. А.Д. Шмелева, под ред.Т.В. Булыгиной. М., Языки русской культуры, 1999. с.53.

meydana çıxmışdır. Əsas konseptdən fərqli olaraq universal deyil, unikal səciyyəli olan bu konsept mədəniyyətlə bağlı realiləri əks etdirdiyindən burada başqa mədəniyyətin nümayəndələri üçün anlaşılmayan məfhumlar – lakuna da əksini tapır. Müəyyən mədəniyyətə aid olan bu tipli anlayışlar digər mədəniyyət nümayəndələri üçün anlaşılmaz olduğundan lakunaların tərcüməsi xüsusi problem yaradan məsələlərdən hesab olunur.

Etsəm qəsəm ol qibleyi-əbruyə, yəqin bil,
Zahid, tökərəm qanını səccadələr içrə.[86]

Sədi Sani Qarabağinin qələmə aldığı beytin ikinci misrasındakı "səccadə" sözü lakuna hesab oluna bilər, belə ki, onun qeyri-müsəlman üçün fərqli mədəniyyətə məxsus anlayış olması anlaşılmasında çətinlik törətməklə yanaşı, tərcümə zamanı da xüsusi izaha və şərhə ehtiyac yaradır.

Qeyd olunan məsələ yalnız anlayışların dərk olunması ilə bağlı deyil, bu onlardan bədii vasitə kimi istifadə edildikdə də meydana çıxır:

Fəda olum sənə mən, səndən ayrıla bilməm,
Yəqin fəraqın edər qəddimi kaman, getmə.[87]

"Qəddin fəraqdan əyilməsi" əslində universal anlayış hesab oluna bilər, lakin onun "kamana dönməsi" şəklində ifadə olunması müəyyən mədəni toplumun bədii yaddaşı üçün keçərlidir.

Şərq ədəbiyyatında hərf və rəqəmlərin xüsusi rəmz kimi istifadəsi də onların anlaşılması üçün müəyyən məlumatın olmasını tələb edir:

Əliftək sərv qəddin, can içində getdi, qəmxarim,
Necə aram tutsun, bilməzəm, cism içrə can sənsiz?[88]

Mətnin funksional-koqnitiv baxımdan təhlili müəllifin oxucuya təsir istiqamətlərini müəyyənləşdirməyə şərait yaratmaqla oxucunun "tələb və imkanları" da nəzərə alınaraq ifadə vasitələrinin seçimini də müəyyən etmiş olur.

Bədii mətnin strukturunun, eləcə də məzmun planının məna

---

[86] Sədi Sani Qarabaği. Fond 24. Arx.-38. Г[2]77. 9562, s.177.
[87] Natəvan. Şeirləri. 229 səhifə. C- 218/ 91 71, 119[a].
[88] Natəvan. Şeirləri. 229 səhifə. C- 218/ 9171, 123[a].

törədiciliyi baxımından araşdırılmasında allüziv onimlərin xüsusi rolu var. Allüziv ad onomastik sistemdə mövcud olan konsept kimi diqqəti cəlb edərək milli-mədəni ənənələrin rəmzi olaraq həm ifadə, həm də üslubi baxımdan əsərə xüsusi rəngarənglik gətirir, müxtəlif adların ədəbiyyatda formalaşdırdığı konsepti müəyyənləşdirmək imkanı verir. Milli-mədəni və tarixi informasiyanın qorunduğu rəmzi işarə olaraq allüziv antroponim oxucunun təfəkküründə mövcud ənənələrlə bağlı məlumatı canlandırmaqla əlavə məna çaları yaradır. Digər məlum "mətn"lərə işarə edən bədii onimlər bədii gerçəkliyin yaradılma vasitəsi olmaqla yanaşı, həm də bədii əsərdə dil və mədəniyyətin onomastik kodu kimi çıxış edir. Dil daşıyıcıları üçün ümumi olan anlayışlar mədəni və ya konseptual kodu təşkil edir.[89]

Mədəni kod anlayışı davranış sistemi, milli dəyərlər, mif və əfsanələrdə, dini baxışlar sistemində təcəssüm edən dünyaya baxışın ümumi mənzərəsini ehtiva edir. U.Ekonun sözləri ilə desək, hər hansı cəmiyyətin nöqteyi-nəzərindən dünyaya qlobal baxış *"dünyanın modelləşdirilməsi sistemi"ni, bu isə mədəni kodun əsasını təşkil edir.*[90] Mədəniyyət kodu, müəyyən mənada, mədəniyyətin rəmzi dilidir.[91] Mədəniyyət anlayışı milli təfəkkür amili nəzərə alınmaqla təsnif edilərkən başlıca mədəni kod göstəriciləri kimi somatik, məkan, zaman, əşyəvi, mənəvi kodlar göstərilir. Somatik kod birbaşa insanla, daha dəqiq desək, onun anatomiyası ilə bağlıdır.[92]

XIX əsr Qarabağ şairlərinin yaradıcılığında allüziv onimlər xüsusi çəkisi ilə seçilir. Bu, bir tərəfdən klassik şeir ənənələri ilə, qəzəl janrının məlum qəlib və təsvir vasitələri ilə bağlı idisə, digər tərəfdən bu

---

[89]Толстая С. М. К понятию культурных кодов. Сборник статей к 60-летию Альберта Кашфулловича Байбурина. Studia Etnologica. С-Пб: Изд-во европейского ун-та, 2007, с.26.

[90] Эко У. Отсутствующая структура. Введение в семиологию. СПб, Симпозиум, 2006, 544 с.

[91] Березович Е. Л. Язык и традиционная культура: Этнолингвистические исследования. М., Индрик, 2007, с.266.

[92] Красных В. В. Коды и эталоны культуры. Язык, сознание, коммуникация. М., МАКС Пресс, 2001. Вып.19, с.13.

dövr ədəbiyyatında müəyyən mənada özünü göstərən demokratik ruhla (xüsusilə həcvlərdə) əlaqədar idi.

Leyla ilə Məcnunu edər yad dili-zar,
Hər mərhələyi-eşqdə divanə görəndə.[93]

XIX əsr Qarabağ ədəbi mühiti nümayəndələrinin yaradıcılığında "Leyli və Məcnun", "Fərhad və Şirin" kimi klassik Şərq əfsanələrini, İskəndər, Yusif, Yaqub kimi tarixi-əfsanəvi şəxsiyyətləri xatırladan, oxucunun təfəkküründə bu hadisələrlə bağlı məqamları canlandıran ifadə üsulu ümumi koqnitiv modelin və etnomədəni irsin mövcudluğuna əsaslanaraq istifadə olunur və anlaşılır.

XIX əsr Qarabağ şairlərinin əsərlərində metaforik konseptin koqnitiv baxımdan təhlili onu söyləməyə əsas verir ki, bu dövrdə bədii mətnin metaforik səciyyəsinin mərkəzi elementini insan amili təşkil etmiş, gerçəkliyin obrazlı şəkildə dərk olunmasında insanla bağlı təəssürat və qarşılaşdırmalara üstünlük verilmişdir.

IV fəslin digər yarımfəsli **""Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvlərinin yaradıcılığında emotivliyin gender baxımından fərqli ifadəsi və insan təqdimatında üz cizgilərinin təsviri"** adlanır.

Bədii ədəbiyyatda obrazın daxili aləminin çatdırılma vasitələrindən biri kimi emotiv aspektdən araşdırma xüsusilə maraq doğurur. Emosiya və onun bədii mətndə ifadə imkanlarını araşdıran M. Baxtinin fikrincə, "*həyəcan onu (həyəcanı – A.H.) keçirənin özü üçün belə yalnız işarələrdə ifadəsini tapdığı mətndə mövcuddur, bu mətndən kənarda həyəcan deyilən bir şey mövcud deyil*".[94] Poetik yaradıcılıqda müəllifin daxili aləminin, onun niyyətinin çatdırılma vasitəsi, eləcə də keçirdiyi hisslərin ifadəçisi kimi emotivlik geniş imkanlar açır. Bədii ədəbiyyatda bunun üçün müxtəlif vasitələrdən istifadə olunur ki, onlardan bədii təkrir, inversiya, sual konstruksiyalarından istifadəni göstərmək olar.

Şövqi-vəslü qəmi-əğyar ələmü dərdi-fəraq,

---

[93] Nəvvab. Divani-torki. Cəmi 92 vərəq. (əlyazma) Б-7548/11210, $50^b$.
[94] Бахтин М.М. Эстетика словесного творчества. М., Наука, 1979, с.107.

Düşməyim Qeys kimi bəs necə mən səhrayə.[95]

Və ya:

Üzüldüm karivanımdan, əl üzdüm xanimanımdan,
Fələk incir fəqanımdan, neçin gəlməz, neçin gəlməz?[96]

Emosional çalarların geniş şəkildə əks olunduğu sahə kimi poetik yaradıcılıqda emotivlik yalnız dil vahidləri ilə deyil, eləcə də bədii mətnin təqdim etdiyi imkanlar hesabına reallaşır. Belə üsullardan biri də bədii təzad vasitəsilə emotivliyin ifadəsidir. XIX əsr Qarabağ şairlərinin yaradıcılığında da antonimlərdən istifadə diqqəti cəlb edir.Təzadın yaradılması üçün əsas rolunu oynayan vasitələrdən biri kimi bədii mətndə ekspressivlik və emosionallıq qazanan antonimlərin işlədilməsi emotivliyin ifadə vasitələrindəndir. Emotiv-konnotativ əsasında yaradılan semantik təzad müəllifə obrazın xarakterini açaraq ideyasını reallaşdırmaqla yanaşı, oxucuya təsir etmək imkanı da qazandırır.

Neyləyim oldu bahar, amma baharım gəlmədi,
Gül açıldı gülşən içrə,gülüzarım gəlmədi.[97]

Bədii mətndə emotivliyin ifadəsi məqsədilə canlı danışığa məxsus "sual-cavab" formasından istifadə qapalı ekspressiv-semantik sahə yaratmaqla xüsusi üslubi çalar qazanmış olur. Bu üsulla oxucunun diqqəti daha çox obrazın daxili aləminə yönəlir, müəllif oxucunun hisslərinə təsir göstərməyə nail olur və bu da bədii mətnin ekspressiv-praqmatik yöndən yerinə yetirməli olduğu vəzifənin uğurlu həlli deməkdir. Bir çox hallarda emotivliyin ifadəsi üçün bir vasitə kifayət etmir, bu zaman emotivliyin çatdırılmasında sinsemantizm müşahidə olunur - "*... mətndə mürəkkəb emosional vəziyyətdə emosiyanın ifadəsi məqsədilə uyğun vasitələrin kompleksindən istifadə olunur*".[98]

Emotivliyin ifadə vasitələrindən biri də xüsusi ekspressiv çəkiyə malik olan mənfi semantikalı sözlərdən, vulqar ifadələrdən, eləcə də

---

[95] Nəvvab. Divani-torki (əlyazma). B-7548/11210, s.50[b].

[96] Natəvan. Şeirləri. C-218/9171, s.130[a].

[97] Nəvvab. Şeirləri. B-2721/20709, s.52[a].

[98] Фаткулина Ф.Г. Понятие деструкции в лексической семантике. Уфа, 2003, с.74.

ironik çalardan istifadədir. Bu məqam xüsusilə ictimai-siyasi lirikada diqqəti cəlb edir:

...Bir içim çaydan ötər Şeyx kəsən şamü səhər,
Qapını dövr edər, çünki səgi-Əsgərənəst.[99]

Ekspressiyanın ifadəsi müxtəlif vasitələrlə mümkün olsa da, poeziyada ekspressiya elementi kimi üz cizgilərinin əksi xüsusi çəkisi ilə seçilir. Təsadüfi deyil ki, alimlər "insanın üz cizgilərini oxumağın" məqsədli şəkildə öyrənilməsindən bəhs edərək, üzü *"ünsiyyətin mühüm aləti"* adlandırırlar.[100]

XIX əsr Qarabağ məclisləri nümayəndələrinin yaradıcılığına nəzər saldıqda həm məzmun, həm də ifadə vasitəsi baxımından zəngin bədii nümunələrin şahidi oluruq. Tekstoloji və filoloji tədqiqata cəlb etdiyimiz əlyazmalardan AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun arxivində mühafizə olunan B-724/3383 (1) şifrli əlyazmada Məhəmmədəli bəy Məxfiyə aid fars dilində mənzumədə obrazın ifadəsində, emosional-psixoloji təsirin artırılması, eləcə də bədii çaların yaradılmasında müxtəlif vasitələrdən çox uğurlu şəkildə istifadə olunduğunun şahidi oluruq:

نمک زیاده کند بر مراحت دل ریشم
تبم صنما گر کند لب نمکینت

*(Ürəyimin yaralarını duz şiddətləndirər. Sənin duzlu dodaqlarının gülüşü, ey sənəm, ürəyimdəki yaralara duz səpir).*[101]

Təhlil zamanı mətnlərin kontent-analizi məqsədilə istifadə olunan metod tətbiq olunmuşdur.

Gender münasibətləri problemi xalqın təfəkkür tərzi ilə birbaşa əlaqəli olduğundan bu tipli anlayışların koqnitiv xüsusiyyətlərinin obyektiv şəkildə müəyyənləşdirilməsi bilavasitə koqnitiv metaforaların tədqiqi prizmasından gerçəkləşdirilə bilər.[102] Emosional-ekspressiv

---

[99] Asi. Həcv. B-7789/11451. İnv. 11451.
[100] Лотман Ю.М. Семиосфера. Спб.: Искусство-Спб., 2000, с.79.
[101] Məmai və Məxfi. Şeirlər. B-724/3283(1).
[102] Калугина Е.Н. Концепты "мужчина" и "женщина" в субстандарте русского и английского языков : диссер. ... канд.филол. наук ,

məqamların gender fərqləri ilə bağlı müxtəlif şəkildə əks olunması baxımından əldə etdiyimiz göstəricilər əsasında qadın və kişi şairlərin əsərlərindəki nəticələri müqayisə etdik. X.Natəvan və F.Kəminənin şeirlərində üz və onun elementləri ilə bağlı ifadələrin işlənmə tezliyi belədir: üz – 23%, baxış – 11%, göz – 34%, qaş – 4%, mah – 3%, zülf – 18%, ləb – 5%, cəmal – 2%.

Həsən Qarabaği və Abdulla bəy Asinin tədqiqata cəlb olunmuş şeirlərinin təhlilinə əsasən, burada üz – 17%, baxış – 9%, göz – 15%, qaş – 4%, mah – 16%, zülf – 29%, ləb – 7%, cəmal – 3% tezliklə işlək olduğu müəyyən olunmuşdur.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatdan alınan qənaət ümumiləşdirilmiş və belə bir yekun təqdim olunmuşdur ki, XIX əsr Qarabağ ədəbi məclisləri dövr və mühitlə bağlı şərtlər nəzərə alınmaqla bütövlükdə yaradıcılıq prosesini istiqamətləndirərək müəyyən axına salır, mədəni hadisəyə çevrilən belə birliklər yeni mədəni baxış tərzi formalaşdırır.

XIX əsr Azərbaycan ədəbi mühiti müxtəlif baxış və istiqamətlərin mövcudluğu ilə səciyyələndiyindən sözügedən zaman kəsimində qarabağlı sənətkarların yaradıcılığında həm dini-didaktik, həm maarifçi-realist, həm də dünyəvi mövzulara meyil kimi istiqamətlər diqqəti cəlb edir. Milli mədəniyyətin fərqli şəkildə təzahür etdiyi XIX əsr Qarabağ mühitində ədəbi məclislər mövcud dəyərlərin ümumxalq səciyyəsi qazanmasında, klassik divan ədəbiyyatının və muğam musiqisinin milli mədəniyyətin aparıcı amillərinə çevrilməsində əhəmiyyətli rol oynamışdır. XIX yüzillik Qarabağ mühiti ədəbiyyatı növ və janr zənginliyi baxımından diqqət çəkən, metod və üslub cəhətdən mübahisə doğuran dövrdür. Bu dövrdə yaranan əsərlər məzmununa görə özündən əvvəlki ədəbiyyatlardan müəyyən dərəcədə fərqlənmiş, dövrə uyğun olaraq millətin gerçək, real həyatını, düşüncəsini, ruhunu əks etdirmişdir. Bütövlükdə, Azərbaycan ədəbi mühitində həm yeniləşmə, həm də ənənə müşahidə olunduğundan, əsrin ədəbiyyatı həm

---

Ставрополь, 2008. - 159 с. http://cheloveknauka.com/kontsepty-muzhchina-i-zhenschina-v-substandarte-russkogo-i-angliyskogo-yazykov

yeniləşmə, həm də ənənə zəminində öyrənilməlidir. XIX əsrin başlanğıcında Qafqazda Rusiya istilasına qarşı milli müqavimət hərəkatının ideologiyasını təriqət ideyaları təşkil etdiyindən Rusiya imperiyası təriqət hərəkatına siyasi bir proses kimi yanaşırdı. Bu baxımdan, XIX əsrdə yaranan təriqət ədəbiyyatına da həmin dövrün ictimai və siyasi proseslərinin kontekstindən yanaşmaq gərəkdir. Bütövlükdə ədəbi məclislər, eləcə də XIX əsr Qarabağ ədəbi məclisləri yeni yaradıcı nəslin təlimində, bədii ənənələrin yaşamasında, ustad-şagird ənənələrinin davam etməsində müstəsna rol oynamışdır. XIX əsr Azərbaycan ədəbiyyatının tam yeni ideya-estetik istiqamətdə inkişafı, böyük nailiyyətlər qazanması, Azərbaycanda maarifçilik ideologiyası əsasının qoyulması bədii ədəbiyyatın real gerçəkliklə əlaqəsini qüvvətləndirmiş, onda yeni ədəbi-estetik prinsiplərin, növ və janrların inkişaf etməsinə səbəb olmuşdur. XIX əsr Qarabağ ədəbi-mədəni həyatının mühüm özəlliklərindən biri də burada təzkirə, müxtəlif səpkili şeir toplularının və salnamələrin yaranmasıdır. Belə ki, Mirzə Yusif Qarabağinin "Məcmueyi-Vaqif və müasirini-digər", Mir Mehdi Xəzaninin "Xəyalat məcmuəsi", Həsənəli Xan Qaradağinin "Xan Qaradaği təzkirəsi", Mir Möhsün Nəvvabın "Təzkireyi-Nəvvab", Məhəmməd ağa Müctəhidzadənin "Riyazül-aşiqin" və digər əsərlərin meydana gəlməsi poeziyanın öyrənilməsinə, tədqiqinə müəyyən imkanlar yaratmışdır. XIX əsr Qarabağ ədəbi mühitinin səciyyəvi xüsusiyyətlərinin müəyyən olunması baxımından bədii nümunələrdə bədii obrazın hərtərəfli dərk olunması koqnitiv, estetik-dəyərləndirmə, qnoseoloji aspektlərin tətbiqi ilə yanaşdıqda mümkündür. XIX əsr Azərbaycan ədəbiyyatı nümayəndələrinin, eləcə də Qarabağ ədəbi mühiti təmsilçilərinin yaradıcılığının antroposentrik və koqnitiv-psixoloji yanaşma tətbiq olunmaqla araşdırılması insan amilinin həm müəllif, həm də əsərin ünvanlandığı oxucu, onun təfəkkür tərzi və psixoloji durumu baxımından, psixoloji və praqmatik istiqamətdən təsir gücü və doğurduğu hisslər çərçivəsində dəyərləndirmək imkanı yaradır.

XIX əsr Qarabağ şairlərinin əsərlərində metaforik konseptin koqnitiv baxımdan təhlili onu söyləməyə əsas verir ki, bu dövrdə bədii mətnin metaforik səciyyəsinin mərkəzi elementini insan amili təşkil

etmiş, gerçəkliyin obrazlı şəkildə dərk olunmasında insanla bağlı təəssürat və qarşılaşdırmalara üstünlük verilmişdir. XIX əsr Qarabağ ədəbi mühitinin bir çox söz ustadlarının əsərlərində Azərbaycan-fars, Azərbaycan-ərəb diqlossiya elementləri müləmmələrin yazılışında xüsusi ahəngdarlığa səbəb olmuşdur. Başqa sözlə, bu müləmmələr o qədər ahəngdar, vəzn və qafiyəcə elə uyğun yazılmışdır ki, dilin dəyişməsinə baxmayaraq, dinləyici bu ifadələrdəki fərqi tez duymur. Qarabağlı söz ustadlarının yaradıcılığında folklordan mövzu və janr baxımından istifadə səciyyəvi cəhətlərdən hesab oluna bilər. Qarabağ sənətkarlarının xalq yaradıcılığı üslubunda yazılmış şeirləri içərisində ictimai-siyasi, dini-mistik məzmunlu nümunələrə təsadüf olunsa da, bu üslublu şeirlərdə dünyəvi eşqin tərənnümü, real məhəbbət motivləri əsas yer tutur. "Məclisi-üns" və "Məclisi-fəramuşan" üzvləri müxtəlif folklor janrlarından, xalq yaradıcılığının məzmun və poetik obrazlar silsiləsindən öz fərdi yaradıcılıq xüsusiyyətlərinə uyğun şəkildə istifadə etməklə, xalq üslubuna xas bədii qəlib və poetik strukturlara müraciət etməklə onlara yeni məzmun və forma verməyə müvəffəq olmuşlar.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əks olunmuşdur:**

1. XIX əsr Qarabağ sənətkarları Füzuli ədəbi məktəbinin davamçıları kimi // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – Bakı: Elm və Təhsil, – 2008. №5, – s.240-251.

2. Mirzə Rəhim Fəna "1905-ci il hadisəsi" / tərc. və tərt. ed. A.A.Hacıyeva; red. M.Nağıoğlu – Bakı: Nurlan, – 2009. – 252 s.

3. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında Musa dini-mifoloji obrazına dair // – Bakı: Dil və ədəbiyyat. Beynəlxalq Elmi nəzəri jurnal, – 2010. №3 (74), – s.223-228.

4. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında İsa Məsih dini-mifoloji obrazına dair // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – Bakı: Elm və Təhsil, – 2010. №7, – s.281-292.

5. Əhməd Yəsəvi yaradıcılığı və Azərbaycan ədəbiyyatı (XIX əsr Qarabağ sənətkarlarının poetik örnəkləri əsasında) // Azərbaycan

Respublikası Təhsil Nazirliyi Azərbaycan Dillər Universiteti. Mədəniyyətlərarası dialoq; linqvistik pedaqoji və ədəbi aspektlər. Beynəlxalq Elmi Konfransın Materialları, – Bakı: – 2010, – s.269-270.

6. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığının ideya-bədii qaynaqları // AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – Bakı: Elm və Təhsil, – 2011. №5, – s.166-173.

7. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında Xızır dini mifoloji obrazına dair // Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi Xəbərlər, – Bakı: – 2011. – s.226-233.

8. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında əfsanəvi quş obrazları // Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Universiteti, Müasir dünyada inteqrasiya və müqavimət prosesləri, – Bakı: – 2012. – s.346-349.

9. Həcv janrının nəzəri məsələlərinə dair // Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti. İlyas Əfəndiyev 100, Respublika Elmi Konfransının materialları, – Bakı: Elm və Təhsil, – 2014. – s.181-187.

10. Abdulla bəy Asinin yaradıcılığında həcv // Azərbaycan xalqının ümummilli lideri H.Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransının materialları, – Bakı: – 2014. – s.237-239.

11. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında həcv // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2014. №1 (89), – s.238-241.

12. Тюрская филология в свете современных достижений // Министерство Образования и Науки Российской Федерации. Тюркская филология в свете современных достижений сборник материалов. Международный научно-практической конференции, посвященной Году литературы в РФ и РБ, 75-летию со дня рождения доктора филологического наук, проф. Д.С.Тинеева. Ч 2. // – Стерлитамок: – 2015. – с.144-149.

13. XIX əsr Qarabağ şairlərinin yaradıclığında bahariyyələr // Görkəmli ictimai xadim, xalq şairi, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş "Bəxtiyar Vahabzadə və Azərbaycan Filologiyasının Aktual Problemləri"

mövzusunda Beynəlxalq Elmi Konfransının Materialları // – Bakı: – 2015. – s.145-150.

14. XIX əsr Qarabağ sənətkarlarının lirikasında sufi-irfani simvolika // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Dövlət Universiteti. “Kitabi-Dədə Qorqud və Türk dünyası” “Kitabi-Dədə Qorqud”un nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq Elmi konfransın materialları, – Bakı: – 2015. – s.574-578.

15. Билингвизм – двуязычие в лирике Карабахских поэтов XIX века // Тюркская филология в свете современных достижений, – Стерлитамак: – 2015. – с.144-170.

16. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında alliterasiya // Azərbaycan Respublikası Təhsil Nazirliyi BDU Birinci Türkoloji Qurultayın 90 illik yubileyinə həsr olunmuş Müasir Türkologiya: Dünən, Bu gün və Sabah (problemlər və perspektivlər) Respublika Elmi Konfransının materialları, – Bakı: – 2016. – s.64-66.

17. Məşədi Məhəmməd Bülbül yaradıcılığında dini obrazlar // Azərbaycan Respublikası Təhsil Nazirliyi BDU “İslam Həmrəyliyi – 2017, Reallıqlar və perspektivlər mövzusunda Respublika elmi-metodik konfransının materialları, – Bakı: – 2017. – s.250-251.

18. Şifahi xalq yaradıcılığı ənənələrinin XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında əksi // – Bakı: Dil və ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №3(103), – s.164-167.

19. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında “Yusif və Züleyxa” obrazları // – Bakı: Dil və Ədəbiyyat, Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №3(57), – s.102-105.

20. Seyid Nigari və XIX əsr Qarabağ ədəbi mühiti // – Bakı: Elmi xəbərlər, – 2017. – s.175-183.

21. Сказания о Коране в творчестве Карабахских писателей XIX века // Мыжнародный Гуманитарный Университет Науковый Высник Мыжнародного Гуманитарного Уныверситету Серия; Филология Збырник Наукових Прощь Выпуск 26 том, – Одесса: – 2017. – с.96-99.

22. Отражение событий 1905-1906 годов в творчестве карабахских писателей XIX века // Вісник Университету имені Альфреда Нобеля. – Філологічні Науки, – 2017. №2(14), – с.70-75.

23. XIX əsr Qarabağ şairlərinin yaradıcılığında koqnitiv-psixoloji xüsusiyyətlərin əksi // – Azərbaycan Universiteti, "İpək yolu" jurnalı, – 2018. №2, – s.90-103.

24. XIX əsr Qarabağ şairlərinin yaradıcılığında emotivliyin gender baxımından fərqli ifadəsi // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – Bakı: Elm və Təhsil, – 2018. №9, – s.224-231.

25. Ədəbi birlik anlayışı və Qarabağ ədəbi məclislərinin səciyyəvi xüsusiyyətləri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Gəncə Dövlət Universiteti, Elmi Xəbərlər. Fundamental, Humanitar və Təbiət Elmləri seriyası Gəncə Dövlət Universiteti, – 2018. – s.116-121.

26. XIX əsr Azərbaycan ədəbi mühitində təriqət məclisləri // AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu Əlyazmalar yanmır (Elmi məqalələr toplusu), – 2018. №2, – s.54-62.

27. Facial Features of human presentation in the Works of representatives of the XIX century Karabaks Assamblies "Majlisi-uns" and "Majlisi-Feramushan" // Akademik Tarih ve Düşünce Dergisi, cilt 5, sayı 17, – Türkiye: – 2018. – s.23-34.

28. XIX əsr Qarabağ sənətkarlarının yaradıcılığında Nəsimi ənənələri // Böyük Azərbaycan şairi İ.Nəsiminin 650 illik yubileyinə həsr olunmuş "Nəsimi və intibah ideyaları" mövzusunda Respublika Elmi Konfransının tezisləri, - Bakı: – 2019. – s. 94-99.

29. The elements of tradition and modernism in nineteenth century Azerbaijani literature // Periodico do Nucleo de Estudos Centro de Ciencias guridicas Universidade Federal da Paraila. V9 No2 Ano 2020. İss n (2179-7137). Renan E. The cife of gesus di 1991. İss n (2177-7137) http:/periodicos ufpb. br/ ojs2/ index.php/ged/index, p.522-536.

Dissertasiyanın müdafiəsi 29 yanvar 2024-cü il tarixində saat 11⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 29 dekabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.12.2023
Kağızın formatı: 60*84/1/16
Həcm: 80099 işarə
Tiraj: 100 nüsxə